QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 041 (5761) **1 mart** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Azərbaycan Prezidentindən tarixi qərar!

## Prezident İlham Əliyev fiziki şəxslərin problemli kreditlərinin həllinə dair Fərman imzalayıb



Səh 2


**Mütərəqqi konsepsiyalara əsaslanan uğurlu sosial siyasət**



3

**Nazirlər Kabinetinin növbəti iclası keçirilib**



4

**Əli Əhmədov Mərkəzçi Demokrat İnternasionalının Prezidentinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb**



4

**Vüsal Qasımlı: “Problemli kreditlərlə bağlı Fərman 800 mindən çox insanı əhatə edir”**



4

**Tural Gəncəliyevdən Tiqran Abramyana sərt cavab**



5

**Ekspert: “Prezidentin Fərmanı problemli kreditlər məsələsinin köklü şəkildə həllinə imkan verəcək”**



5

6

**AXCP sədrinin dəyişilməyən xisləti**



8

**Sosial inqilab nümunəsi**




11

**Gültəkin Hacıbəyli dələduz çıxdı**



# Azərbaycan Prezidentindən tarixi qərar!



Prezident İlham Əliyev fiziki şəxslərin problemli kreditlərinin həllinə dair Fərman imzalayıb

***Prezident İlham Əliyev fiziki şəxslərin problemli kreditlərinin həllinə dair Fərman imzalayıb. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev fevralın 28-də “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Fərman imzalayıb.***

Fərmana əsasən, aşağıda qeyd olunan tarixlərə fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi aşağıdakı qaydada qiymətləndirilməklə, bu Fərman qüvvəyə mindiyi günə Mərkəzi Bankının elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək:

- 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları) kimi;
- 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) kimi;
- 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarına münasibətdə - bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində qeyd olunan hər iki qaydada nəzərdə tutulduğu kimi.

Ödəniş, ilk növbədə, fiziki şəxslərin banklar və ləğvetmə prosesində olan banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldiləcək, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına veriləcək.

Bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 min ABŞ dollarının manat ekvivalentindən çox olmamalıdır.

Mərkəzi Bank Fərman qüvvəyə mindiyi tarixə fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək olan kreditlər üzrə vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə Maliyyə Bazarlarına Nəzarət Palatasının müraciəti əsasında, banklara 682 milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit verəcək. Mərkəzi bank, həmçinin bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 milyon ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsini təmin edəcək

Banklara nəzərdə tutulan siyahı üzrə vaxtı keçmiş kredit borcu olan fiziki şəxslərə yeni güzəştli kredit müqaviləsi bağlanmasını təklif etmələri, fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiya olunacağını nəzərə alaraq, banklar bir ay müddətində həmin kreditlərə hesablanmış faizlərin silinməsini və məhkəmədə olan işlərin geri çağırılmasını, eləcə də borcları restrukturizasiya olunmuş fiziki şəxslərin borc yükünün yüngülləşdirilməsini təmin edən digər tədbirlər görmələri tövsiyə olunur.

Maliyyə Bazarlarına Nəzarət Palatası isə banklarla birlikdə bir ay müddətində fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək olan kreditləri üzrə vaxtı keçmiş və bu Fərmana əsasən hər bir bank üzrə restrukturizasiya olunmalı kredit borclarının məbləğini və borcluların siyahısını müəyyən edərək, bu barədə Azərbaycan Respublikasının Prezidentinə, Maliyyə Nazirliyinə və Mərkəzi Bankına məlumat verməlidir.

Fərmanın məqsədləri üçün - fiziki şəxslərin xarici valyutada 10 min ABŞ dollarınadək və ya milli valyutada 17 min manatadək olan əsas kredit borcları dedikdə onların bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi; 10 min ABŞ dollarınadək və ya 17 min manatadək məbləğ dedikdə müvafiq olaraq 10 min ABŞ dollarının və ya 17 min manatın da daxil olduğu məbləğ; fiziki şəxslərin kredit borcları dedikdə onların 2012-ci il yanvarın 1-dən Fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələrinə əsasən bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi; bank dedikdə banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla); ləğvetmə prosesində olan bank dedikdə ləğvetmə prosesində olan banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla); vaxtı keçmiş kredit borcu dedikdə fiziki şəxslərlə 2012-ci il yanvarın 1-dən bu Fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələri üzrə əsas məbləğin və (və ya) faiz borclarının ödənilməsi 360 gündən çox gecikdirilmiş borclar; restrukturizasiya dedikdə əsas kredit borclarının ödənilməsi məqsədilə fiziki şəxslərə güzəştli kreditlərin verilməsi; güzəştli kredit dedikdə fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə onlara banklar tərəfindən illik faiz dərəcəsi 1 faiz, banklara isə Mərkəzi Bankı tərəfindən illik faiz dərəcəsi 0,1 faiz olmaqla 5 il (1 il güzəşt müddəti ilə) müddətinə verilən kreditlər; faizlərin silinməsi dedikdə vaxtı keçmiş kredit borcları üzrə hesablanmış faizlərin və dəbbə pulunun (cərimə, penya) silinməsi; məhkəmədə olan işlərin geri çağırılması dedikdə vaxtı keçmiş kredit borcları ilə bağlı məhkəmələrdə olan iddialardan imtina edilməsi və icra sənədi üzrə icraata xitam verilməsi ilə əlaqədar Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və “İcra haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tədbirlər görülməsi nəzərdə tutulur.

# Prezident İlham Əliyev Mərkəzçi Demokrat İnternasionalının Prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın başçılıq etdiyi, bu qurumun baş katibi Antonio Lopez-İsturiz və Asiya və Sakit okean regionu üzrə baş əlaqələndiricisi Sezar Rosellonun daxil olduğu nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev səfərin və aparılan müzakirələrin ölkəmizlə bu təsisat arasında əməkdaşlıq və dialoqun inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi. Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrana rəhbərlik etdiyi təşkilatın gündəliyində duran məsələlər və həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, səfər çərçivəsində məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülən sosial təyinatlı işlərin nümunəvi olduğunu bildirdi.



Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində saxlanıldığını qeyd edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin doğurduğu fəsadlar və münaqişənin həlli prosesi barədə danışdı. Görüşdə, həmçinin Mərkəzçi Demokratlar İnternasionalı ilə Azərbaycan, xüsusilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Sədaqət Qəhrəmanovanın 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Sədaqət Məmmədyar qızı Qəhrəmanova 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 fevral tarixli 1504-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

# Mütərəqqi konsepsiyalara əsaslanan uğurlu sosial siyasət

## *İlham Əliyev: “Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcək”*

***Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsasını əhalinin rifah halını yüksəltməyə yönəltmək təşkil edir. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən, ötən illərdə dünyada hökm sürən maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, ölkəmizdə sosial layihələr və iqtisadi islahatların icrası zəifləmədi, hətta əvvəlki sürətlə davam etdirildi.***



Nəticədə, ölkəmizin inkişafyönümlü iqtisadi siyasəti sosial sahənin də yüksəlməsinə, vətəndaşların rifah halının yaxşılaşmasına gətirib çıxarıb. Bu gün dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə dünyaya nümunə göstərilən bir inkişaf modeli formalaşıb. Məhz bu müsbət tendensiyaların mövcudluğu səbəbindən, iqtisadi və siyasi sabitliyimiz davamlıdır. Bu amilləri yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirir ki, dünyanı bürüyən böhranlardan asılı olmayaraq Azərbaycanın inkişafı və ölkədəki ictimai-siyasi sabitlik bizim böyük sərvətimizdir.

Ən önəmli məqam isə, ondan ibarətdir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə, ötən dövr ərzində, əhalinin sosial rifahının yüksəldilməsi və sosial infrastrukturun ən müasir standartlara uyğun yenidən qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilmiş və mühüm uğurlar əldə olunmuşdur. Xüsusən, sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı Dövlət proqramları, böyük layihələr həyata keçirilibdir. Çox önəmli faktdır ki, hər il ölkəmizin başçısının imzaladığı fərman və sərəncamların 65 faizi, məhz sosialyönümlüdür.

### Dövlətin sosial siyasətinin uğurlu nəticələri

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirədə çıxış edən dövlət başçısı bildirib ki, 2019-cu ildə Azərbaycanda iqtisadi artım yüksək templərlə təmin ediləcək və davam etdiriləcək: “2018-ci il dərin iqtisadi islahatlar ili olmuşdur, xüsusilə, prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verilmişdir. 2017-ci il isə, iqtisadi sabitləşmə ili idi. Biz 2017-ci ildə iqtisadi sabitliklə bağlı çox önəmli addımlar atmışıq. Bu, bizə imkan verdi ki, 2018-ci ildə çox ciddi islahatlara başlayaq və islahatlar özünü göstərir. Əgər bu ilin yanvar ayının yekunlarına nəzər salsaq, görərik ki, iqtisadi artım, yeni ümumi daxili məhsulun artımı, təxminən 3 faiz təşkil edir. Son 2-3 il ərzində, bu, ən yüksək göstəricidir və onu göstərir ki, 2019-cu ildə Azərbaycanda iqtisadi artım yüksək templərlə təmin ediləcək və davam etdiriləcək”.

Dövlət başçısı 2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını da qeyd edib: “2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır. Hələ keçən ilin dekabr ayında hərbçilər üçün inşa edilmiş yeni binanın açılışı zamanı bildirmişdim ki, şəhid ailələrinin sosial məsələləri öz həllini tapacaq. Bildiyiniz kimi, prezident seçkilərindən sonra imzaladığım ilk Fərman şəhidlərin vərəsələrinə veriləcək 11 min manat ödənişlə bağlı idi. Siyahılar dəqiqləşdirilirdi və ilkin təhlil, onu göstərmişdir ki, təqribən 9500 şəhid ailəsinə ödəmələr veriləcəkdir. Ancaq sonra dəqiqləşmə aparıldı. Dekabr ayında mən bildirdim ki, dəqiqləşmə nəticəsində, bu rəqəm artacaq və artdı. Hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram tam icra olunacaqdır. Bununla paralel olaraq, şəhid ailələri ilə görüşdə onlar məsələ qaldırdılar ki, müavinətlər də artsın. Dərhal Fərman imzalandı və bu müavinət 242 manatdan 300 manatadək artırıldı. Maddi imkanlarımız artdıqca, əlbəttə ki, daim bu məsələ diqqət mərkəzində olacaqdır. Bu yaxınlarda Əfqanıstan veteranlarının müavinəti də artdı - 220 manatdan 300 manata qalxmışdır. Bu da ədalətli yanaşmadır. Bir sözlə, bütün bu məsələlərlə bağlı biz, ardıcıl olaraq, öz siyasətimizi aparırıq. Maddi imkanlarımız artdıqca, ilk növbədə, bu məsələləri həll edirik”.

Prezident İlham Əliyev müşavirədə minimum əmək haqlarının artırılması ilə də bağlı məsələyə toxunaraq, bildirib ki, bu il biz minimum əməkhaqqını əhəmiyyətli dərəcədə artırdıq: “Bu, böyük artımdır, 130 manatdan 180 manata qalxıbdır. Bu, 600 min insanı əhatə edir. Ancaq o da, həqiqətdir ki, bu rəqəm bizi heç də razı sala bilməz. Ona görə müvafiq göstərişlər verildi ki, minimum əməkhaqqının gələcək artımı ilə bağlı təkliflər hazırlansın. İndi bunun maliyyə yükünü, əlbəttə ki, biz qiymətləndirməliyik. Əlbəttə ki, gələcəkdə minimum əməkhaqları və pensiyalar, ardıcıl olaraq, artırılacaq”.

Dövlət başçısı, həmçinin, minimum pensiyalarla bağlı çox ciddi qərar qəbul edildiyini bildirib: “Minimum pensiyaların məbləği də təxminən 38 faiz, bir qədər çox artmışdır - 116 manatdan 160 manata qədər. Bu gün minimum pensiyanın səviyyəsinə görə, Azərbaycan MDB məkanında ikinci yerdədir. Ancaq onu da bilməliyik ki, bu, son hədd deyil. Əlbəttə ki, əməkhaqlarının, pensiyaların artırılması gündəlikdə duran əsas məsələlərdən biridir. Minimum pensiyanın artırılması 223 min insanın pensiya təminatını yaxşılaşdıracaqdır”.

Uzun illər ərzində, vətəndaşları narahat edən problemlərdən olan vaxtilə tikilmiş və hansısa səbəblərə görə, rəsmi olaraq, qəbul edilməyən çoxmənzilli binaların sənədləşməsi məsələsi ilə də bağlı imzaladığı Fərman barədə də məlumat verib: “Biz bu məsələyə də son qoyduq. İmzaladığım Fərman əsasında artıq bu məsələ həll olunmuş hesab edilməlidir. Yaxın gələcəkdə müvafiq dövlət orqanları, bütün sənədləşmə işlərini apararaq, məsələnin həllini təmin edəcəklər. Dörd yüz çoxmənzilli binada təxminən 60 minə yaxın əhali yaşayır. O vətəndaşların ailə tərkibləri təqribən toplam 300-400 min arasıdır. Yəni bu da, çox ciddi addım idi. Biz bunu da həll etdik.

Dövlət başçısı, həmçinin, müşavirədə tələbələrin təqaüdlərinin artırıldığının və gələcəkdə yenə də artımın nəzərdə tutulduğunu qeyd edib: “Təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Bu da, çox ciddi sosial addımdır. Gələcəkdə yenə də artım nəzərdə tutulur”.

### “Bizdə güclü iradə və güclü sosial siyasət var”

Dövlət başçısı müşavirədə bütün bu əldə olunan nailiyyətlərin əsas stimulverici amili kimi qeyd edib: “Buna görə, bir daha demək istəyirəm ki, bizim iqtisadi inkişafımız sosial məsələlərin həlli ilə nə qədər bağlıdır. Bu da, təbiidir. Bizdə güclü iradə, güclü sosial siyasət var. Eyni zamanda, elan edilmiş və icra edilən ciddi iqtisadi və sosial islahatlar bizə imkan verir ki, əlavə maliyyə resurslarını, məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək. Əminəm ki, 2019-cu il, bütövlükdə, ölkəmiz üçün uğurlu il olacaqdır. Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcək”.

Beləliklə, bütün bu dövlətin mütərəqqi konsepsiyalara əsaslanan uğurlu sosial siyasətinin təzahürüdür. Şübhə yoxdur ki, bundan sonra da ölkə rəhbərliyi müstəqil siyasətini davam etdirəcək. Azərbaycan müstəqil dövlət kimi yeniyeni zirvələr fəth edəcək!

**RƏFİQƏ KAMALQIZI**

# Əli Əhmədov Mərkəzçi Demokrat İnternasionalının Prezidentinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini- İcra katibi Əli Əhmədov fevralın 28-də Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın başçılıq etdiyi, bu qurumun baş katibi Antonio Lopez-İsturiz və Asiya və Sakit okean regionu üzrə baş əlaqələndiricisi Sezar Rosellonun daxil olduğu nümayəndə heyəti ilə görüşüb.

YAP-ın Sədr müavini Əli Əhmədov MDİ-nin prezidentinin ölkəmizə səfərinin və aparılan müzakirələrin tərəflər arasında əməkdaşlıq və dialoqun inkişafına mühüm töhfə verəcəyinə əminliyini bildirdi.



Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrana Bakıda olduğu müddətdə iştirak etdiyi müzakirələrin, eləcə də məcburi köçkünlərlə görüşünün onda müsbət təəssürat yaratdığını qeyd etdi. Cənab Andres Pastrana Azərbaycan hökuməti tərəfindən məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən sosial təyinatlı layihələrin nümunəvi olduğunu bildirdi.

Görüşdə Mərkəzçi Demokratlar İnternasionalı ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın mövcud durumu və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Vüsal Qasımlı: "Problemli kreditlərlə bağlı Fərman 800 mindən çox insanı əhatə edir"



Problemli kreditlərlə bağlı Fərman 800 mindən çox insanı əhatə edir. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı keçirdiyi mətbuat konfransında deyib. V.Qasımlı qeyd edib ki, Prezident İlham Əliyev fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq və dövlət dəstəyini təmin etmək məqsədilə Fərman imzalayıb. Fərmana əsasən, kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla), habelə Əmanətlərin Sığortalanması Fondunun ləğvedici kimi təyin edildiyi ləğvetmə prosesində olan banklarla fiziki şəxslər arasında bağlanmış müqaviləyə əsasən, fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 min ABŞ dollarınadək olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək.

Fərmanı şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru bildirib ki, dövlət dəstəyini müəyyən etmək üçün 2015-ci il fevralın 21-i və dekabrın 21-i tarixləri, başqa sözlə, məzənnə dəyişdiyi tarixlər əsas götürülüb: "2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları) və 2015-ci il fevralın 22-dən həmin ilin dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) kimi qiymətləndirmə olacaq. 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarına hər iki qayda tətbiq olunur". V.Qasımlı deyib ki, ödəniş ilk növbədə fiziki şəxslərin kredit təşkilatları qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldiləcək, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına veriləcək: "Bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 min ABŞ dollarının manat ekvivalentindən çox ola bilməz". O qeyd edib ki, Fərmanın sosial əhəmiyyəti kifayət qədər yüksəkdir: "Belə ki, Fərmanın əhatə dairəsinə 800 mindən çox insan düşür. Bunun üçün dövlət tərəfindən 700 milyon manatdan çox vəsait ödəniləcək".

V.Qasımlının sözlərinə görə, Fərman həm də bank sektorunun maraqlarını nəzərə alıb: "10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək əsas kredit borcu olan fiziki şəxslərin gecikmədə olan borcları uzunmüddətli və aşağı faizli kreditlərlə əvəzlənəcək və restrukturizasiya olunacaq. Bunun üçün banklara 682 milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit veriləcək. Eyni zamanda, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 milyon ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsi təmin olunacaq".

O bildirib ki, Azərbaycan digər post-sovet ölkələrinə nisbətən problemli kreditlərin həllində daha sistemli və əhatəli yanaşmanı ortaya qoyub, həmçinin əhalinin maraqlarını daha yüksək səviyyədə nəzərə alıb: "Problemli kreditlərin həlli Prezident İlham Əliyevin apardığı sosial xarakterli islahatların tərkib hissəsidir. 2019-cu il Azərbaycanda sosial rifah ilidir".




# Nazirlər Kabinetinin növbəti iclası keçirilib

Fevralın 28-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə "İcbari tibbi sığortanın tətbiqi üzrə pilot layihənin icrasının yekunları və qarşıda duran vəzifələr", "Vergi və gömrük güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi və vergilər sahəsində şəffaflığın təmin edilməsi, vergi mədəniyyətinin formalaşdırılması, real vergi potensialının müəyyən edilməsi və münbit vergi mühitinin yaradılması istiqamətində qarşıya çıxan problemlər" və "Təbii, iqlim və digər xüsusiyyətləri nəzərə alınmaqla, iqtisadi rayonların kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşdırılması məsələləri" ilə bağlı mövzular daxil edilib.

Gündəlikdəki birinci məsələ barədə danışan Baş nazir Novruz Məmmədov qeyd edib ki, son illər ölkəmizdə bütün istiqamətlərdə olduğu kimi, səhiyyə sahəsində də geniş islahatlar aparılıb. Bu islahatların mühüm istiqamətlərindən biri də icbari tibbi sığortanın tətbiqi üzrə görülən işlərdir. Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsində icbari tibbi sığortanın tətbiqinin xüsusi əhəmiyyət daşıdığını bildirən Novruz Məmmədov deyib ki, bununla bağlı artıq qanunvericilik bazası da yaradılıb. Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərmanları ilə Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqi pilot layihə olaraq həyata keçirilməkdədir.

Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidentinin vergi və gömrük sahələrində şəffaflığın təmin edilməsi və səmərəliliyin artırılması, eləcə də iqtisadi rayonların kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşdırılması barədə qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində hökumətin gördüyü işlər və qarşıda duran vəzifələrlə bağlı məlumat verib.

Sonra gündəlikdəki məsələlərə dair İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevin, vergilər naziri Mikayıl Cabbarovun, kənd təsərrüfatı naziri İnam Kərimovun məruzələri dinlənilib.

# Hikmət Hacıyev: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar formatı bəllidir"



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın danışıqlar prosesinin formatı ilə bağlı açıqlamasını AZƏRTAC-a şərh edərək deyib:

-Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar formatı bəllidir, formatın dəyişdirilməsi müzakirə mövzusu deyil və ola da bilməz. Danışıqlar prosesi ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə münaqişə tərəfləri olaraq Ermənistan və Azərbaycan arasında aparılır. Ermənistandakı hakimiyyət dəyişikliyindən sonra Prezident İlham Əliyev və Nikol Paşinyan arasında üç dəfə təmasın olması, Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında dörd dəfə görüşün keçirilməsi danışıqların mövcud format əsasında aparılmasının bariz nümunəsidir.

Ermənistan rəhbərliyinin danışıqlar prosesinin formatının dəyişdirilməsi barədə iddiaları qəsdən danışıqları dalana salmaq və danışıqlar prosesini pozmaq cəhdlərindən başqa bir şey deyil. Buna görə məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşür.

# Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib. SİA-nın məlumatına görə, iclasda daxil olan müraciətlərin daha bir qisminə baxılıb. Bildirilib ki, növbəti iclaslarda müraciətlərin qalan hissəsinə baxılması da nəzərdə tutulur. Qeyd edək ki, komissiyaya daxil olan müraciətlərə baxıldıqdan sonra siyahı Prezident İlham Əliyevə təqdim ediləcək. Dövlət başçısının Novruz bayramında əfv sərəncamı imzalayacağı gözlənilir.

# Mixail Zabelin: Soyqırımı qurbanlarının anım mərasimində iştirak etmiş rusiyalı siyasətçilərə və deputatlara irad bildirmək anlaşılası məsələ deyil



***Fevralın 28-də Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan-Rusiya Parlamentlərarası dostluq qrupunun üzvü Mixail Zabelin Rusiya Federal Məclisinin Federasiya Şurasında Ermənistan parlamenti sədrinin çıxışı ilə əlaqədar bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: Fevralın 26-da Azərbaycanda ölkə tarixinin ən hüznlü günlərindən biri - Xocalı şəhərinin erməni terrorçuları tərəfindən yerlə-yeksan edilməsinin 27-ci ildönümü qeyd edilib.***

Minlərlə insan öz evindən qovulub, 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə qətlə yetirilib. Səkkiz ailə tamamilə məhv edilib. İyirmidən çox ailənin hərəsindən yalnız bir nəfər sağ qalıb. 487 nəfər yaralanıb, 1275 nəfər əsir götürülüb. 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi hələ də məlum deyil. Bir sıra ölkələr bu faciəni Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanıyıb.

Fevralın 26-da Bakıda Xocalı soyqırımı abidəsinə ənənəvi ümumxalq yürüşü keçirilib. Ənənəyə görə, bu yürüşdə təkcə Azərbaycan vətəndaşları deyil, digər ölkələrin nümayəndələri - gələcəkdə buna oxşar faciələrin təkrarlanmasının qarşısını almağı zəruri hesab edən hər kəs iştirak edir.

Builki yürüşün iştirakçıları arasında Rusiya nümayəndələri, o cümlədən Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan dostluq qrupunun rəhbəri Dmitri Savelyev, Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov, Dövlət Dumasının deputatları Oksana Puşkina, Olimpiya çempionu İrina Rodnina və başqaları da vardı. İndi Ermənistan hakimiyyət orqanlarının rəsmi nümayəndələri, o cümlədən bu ölkənin Rusiya Federasiyasındakı səfiri və Ermənistan parlamentinin sədri inciklik bildirir və onlara iradlarını təqdim edirlər.

Ermənistan parlamentinin sədri Ararat Mirzoyan tribunadan çıxışında bəyan edib ki, o, "təəssüflə qeyd etməyə məcburdur ki, ölkələrimiz arasında qarşılıqlı müttəfiqlik əlaqələrinin yüksək səviyyəsinə, həmçinin Rusiya tərəfinin Qarabağ münaqişəsinin dinc yolla həlinə yönəlmiş ardıcıl səylərinə baxmayaraq, bəzi rusiyalı həmkarlarımız dünən Bakıda keçirilən, regionda davamlı sülhün və sabitliyin pozulmasına yönələn, açıq-aşkar antierməni aksiyada iştirak ediblər".

Ermənistanın RF-dəki səfiri Vardan Toqanyan da onun sözünə qüvvət verir. O, öz diplomatik missiyası adından belə bir bəyanat yayıb: "Biz Bakıda keçirilən, açıq-aşkar antierməni xarakteri daşıyan və regionda etimad ab-havasını pozmaq məqsədilə istifadə olunan yürüşdə rusiyalı parlamentarilərin iştirakına görə hiddətlənmişik".

Nə deyək, gəlin, məsələni araşdıraq. Açıq, vicdanla və umu-küsüsüz.

İrina Rodnina, Oksana Puşkina, Dmitri Savelyev və başqalarının iştirak etdiyi aksiya əslə "antierməni" aksiya deyil - eynilə Xatın, Liditse və Oradur faciələrinin anılması əslə "antialman aksiyası" olmadığı kimi.

Fevralın 26-da Bakıda qəddarlığına görə dəhşətli, əliyalın dinc insanlara bilərəkdən kütləvi şəkildə divan tutulmasının qurbanlarının xatirəsi yad edilib. Bu insanların yeganə "təqsiri" bu idi ki, onlar erməni kimi doğulmayıblar, amma ermənilərin göz dikdikləri torpaqda yaşayırdılar. Ermənistanın sabiq prezidenti, həmin illərdə "səhra komandiri" olmuş Serj Sarkisyan britaniyalı jurnalist Tomas de Vaal ilə söhbətində lovğalanaraq deyib: "Xocalı hadisələrinə qədər azərbaycanlılar düşünürdülər ki, bizimlə zarafat etmək olar. Onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu stereotipi ardan qaldıra bildik. Məsələ belə olub".

Bunun məhz necə olduğunu təsdiqləyən çoxsaylı sübutlar var. Onlardan yalnız birini göstərim: "O dəhşətli mənzərəni heç vaxt unutmaram. Təpədən dırnağa silahlanmış möhkəm bədənli erməni oğlanlar qalın qarın üstü ilə qaçışan köməksiz qadınlara və uşaqlara atəş açırlar". Bu sözləri Xocalı sakini, milliyyətcə rus olan Sergey Bondarev deyib.

2018-ci ilin yazında xalq iğtişaşları nəticəsində Serj Sarkisyan rejimi devriləndə çoxları, o cümlədən bu sətirlərin müəllifi də ümid edirdi ki, indi Ermənistanda hakimiyyətə gələn yeni insanlar heç olmasa şəxsən bu cür cinayətlərin iştirakçıları olmayıblar. Lakin Mirzoyanın və Toqanyanın indiki bəyanatları göstərir ki, bizim o vaxtkı nikbinliyimiz həddən artıq mübaliğə imiş. Gəlin realist olaq: dünyanın 16 ölkəsinin parlamentinin soyqırımı kimi tanıdığı hadisənin - dinc əhalinin kütləvi şəkildə qırılması qurbanlarının anım mərasimində iştirak etmiş rusiyalı siyasətçilərə və deputatlara iradlar bildirmək anlaşılası məsələ deyil. Üstəlik, "regionda davamlı sülhün və sabitliyin pozulması" barədə mühakimələr eşitmək təəccüblüdür. Bunu belə başa düşmək olarmı ki, yuxarıda adlarını çəkdiyim cənabların fikrincə, "regionda sülhə və sabitliyə" gedən yol dinc əhaliyə vəhşicəsinə divan tutulmasından keçir?!

Xatırlatmağa məcburam: regionda sülhün və sabitliyin pozulmasına səbəb, ilk növbədə, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalının davam etməsi və rəsmi Yerevanın BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrini yerinə yetirməkdən imtina etməsidir. Yeri gəlmişkən, həmin qətnamələrin lehinə Rusiya da səs verib. Bu qətnamələr erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Həmin cənabların Rusiya ilə müttəfiqlik münasibətlərinə apellyasiya etmələrinə gəldikdə isə, ilk növbədə, Yerevanın emissarları bu barədə Rusiyaya iradlarını bildirməkdən əvvəl öz əməllərini araşdırmalı idilər. O cümlədən yada salmalı idilər ki, Yerevanın mərkəzində, hökumət binaları yerləşən məhəllədə hərbi cinayətkar, Hitlerin əlaltısı Qaregin Njdeyə heykəl qoyulub. Onu yada salmalı idilər ki, Yerevanda ictimai həyatın bütün sahələrindən və ilk növbədə, təhsil sahəsindən rus dilinin planlı şəkildə sıxışdırılması siyasəti davam edir.

Ermənistanda rus dilində təhsil almağa praktiki olaraq imkan yoxdur.

Bu yaxınlarda isə orada "Çto? Qde? Koqda?" adlı sonuncu "rusdilli" televiziya verilişi bağlanıb. İndi həmin veriliş yalnız erməni dilində efirə çıxacaq. Nəhayət, lap yaxın vaxtlarda Ermənistanda növbəti "CampCamp" seminarı keçirilib. Həmin seminarda MDB ölkələrindən olan gənc "müxalifətçilərə" Amerikanın pulları hesabına "rəngli inqilabları" necə təşkil etməyi öyrədirdilər.

Sonda sadə bir həqiqəti xatırladaq: müttəfiqlik münasibətləri heç də o demək deyildir ki, heç kəs öz müttəfiqini heç vaxt tərsinə sığallamayacaq. Xüsusən Xocalı faciəsi kimi hiddətləndirici hadisələrdən söhbət gedəndə. Daha bir məsələ: Rusiyanın paytaxtı Yerevanda yox, Moskvada yerləşir".

# Ekspert: "Prezidentin Fərmanı problemli kreditlər məsələsinin köklü şəkildə həllinə imkan verəcək"



Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman uzun müddət müzakirə olunan və əhalini daha çox narahat edən sosial məsələlərin həlli deməkdir. Nəticə etibarilə vətəndaşların diqqət mərkəzində olan bu problem öz həllini tapdı. Həmin problemin həlli yüz minlərlə insanın bu güzəştdən istifadə etməsinə şərait yaradacaq.

Bu sözləri AZƏRTAC-a iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, Fərmana əsasən, xarici valyutada kredit götürmüş fiziki şəxslər bu güzəştlərdən faydalanacaq. Güzəşt 10 min dollar həcmində kredit borclarına tətbiq olunacaq. Güzəştin müəyyənləşdirilməsi zamanı iki dövr - 2012-ci il yanvarın 1-dən 2015-ci il fevralın 21-dək olan müddət nəzərdə tutulub: "Bu dövrdə hər dollara 0,25 qəpik güzəşt tətbiq ediləcək. Bu isə o deməkdir ki, birinci devalvasiyayadək vətəndaş 10 min dollar kredit götürmüşdüsə, onun krediti manat ifadəsində 7 min 800 manat idi. Devalvasiyadan sonra həmin məbləğ 10 min 500 manata çatıb. Hər dollara 0,25 qəpik güzəşt tətbiq olunduğu üçün 10 min 500 manatdan 2 min 500 manat çıxılacaq və məbləğ təxminən devalvasiyadan əvvəlki məbləğ olacaq. 2015-ci il fevralın 21-dən dekabrın 21-dək olan kreditlərdə isə hər dollara 60 qəpik güzəşt tətbiq olunacaq. Bu, hər 10 min dollara 6 min manat güzəştin tətbiqi anlamına gəlir. Hər bir vətəndaşa tətbiq edilən güzəştin məbləği 5 min dollar olacaq. Yəni, 10 min dollar kredit götürən vətəndaş 5 min dollaradək güzəşt əldə edəcək. Qalan məbləğin ödənilməsi ilə bağlı vətəndaşlara banklardan 5 il müddətinə illik faizi 1 faiz olmaqla güzəştli kredit götürmək imkanı veriləcək. Bu da vətəndaşlara imkan verəcək ki, qalan hissəni 1 faizlik kredit götürməklə 5 il müddətinə ödəyə bilsinlər. Bunun üçün Mərkəzi Bank 682 milyon manatlıq krediti kommersiya banklarına ödəyəcək. Banklar tərəfindən hesablanmış artıq faizlər, cərimələr silinir, məhkəmələrdə olan işlərin geri çağırılması tövsiyə olunub". "Ümumilikdə bu Fərman problemli kreditlər məsələsinin köklü şəkildə həll edilməsinə imkan verəcək. Həmçinin bu, vətəndaşların sosial təminatının gücləndirilməsi baxımından ciddi addım kimi qiymətləndirilməlidir", - deyə V.Bayramov əlavə edib.

# Tural Gəncəliyevdən Tiqran Abramyana sərt cavab




Özünü Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin "prezidentinin müşaviri" qismində təqdim edən Tiqran Abramyanın erməni KİV-də səsləndirdiyi fikirlərinə "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Tural Gəncəliyev sərt münasibət bildirib. SİA həmin qeydləri təqdim edir:

İşğal edilmiş Azərbaycan ərazilərində yaradılmış qondarma rejimin "nümayəndələri"nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində aparılan danışıqlara xələl gətirən yersiz və qeyri-konstruktiv açıqlamaları artıq təəccüb doğurmur. Tiqran Abramyanın səsləndirdiyi fikirlər bunu birmənalı şəkildə təsdiqləyir. O, qoşunların təmas xəttində hazırkı vəziyyəti şərh edərək, vəziyyətin qiymətləndirilməsi üçün çoxsaylı amillərin nəzərə alınmalı olduğunu və Azərbaycanın təmas xəttində guya qeyri-stabillik yarada biləcək fəaliyyət apardığını iddia etmişdir.

Tiqran Abramyanın və qondarma rejimin diqqətinə çatdırmaq istərdim ki,münaqişənin sülh yolu ilə birdəfəlik tənzimlənməsinin yeganə yolu işğalçı Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması və oradan qovulmuş azərbaycanlı əhalinin öz torpaqlarına geri dönüşü ilə mümkündür. Bunun əvəzinə, qondarma rejimin "təmsilçilərinin" dili ilə qeyri-konstruktiv atmosfer yaradılması qəbuledilməz haldır. Tiqran Abramyana həmçinin xatırlatmaq lazımdır ki, işğalçı Ermənistan adambaşına düşən gəlir səviyyəsi və həbi sahəyə ayırdığı xərclərə görə təkcə regionda deyil, beynəlxalq səviyyədə hərbiləşmiş ölkə kimi tanınır.

Onu da qeyd etmək yerinə düşər ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırda aparılan danışıqların ruhuna və formatına zidd olaraq, qondarma rejimin nümayəndələrinin danışıqlara cəlb edilməsi ilə bağlı Tiqran Abramyanın səsləndirdiyi təxribat xarakterli fikir və Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının bərabərhüquqlu icmalar olduğunun qeyd edilməməsi Ermənistanın münaqişəsinin birdəfəlik sülh yolu ilə həll edilməsində maraqlı olmadığına dəlalət edir.

Avropa İnsan hüquqları məhkəməsinin Çıraqov və digərləri Ermənistana qarşı işi üzrə verdikti bir daha təsdiq edir ki, qondarma rejim bilavasitə Ermənistanın təsiri altındadır və onun siyasi, maliyyə və hərbi dəstəyi sayəsində mövcuddur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan sadə ermənilər də bu işğalçı siyasətdən əziyyət çəkirlər.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində yenidən sülh şəraitində birgə yaşamağa qadir olduqlarına inanır. Hər iki icmanın xoşbəxt gələcəyi və regionun təhlükəsiz iqtisadi inkişafı işğalın nəticələrinin aradan qaldırılması ilə mümkündür.

# AXCP sədrinin dəyişilməyən xisləti

## FAKT: "Əli Kərimli artıq hakimiyyətlə 2020-ci ilin parlament seçkiləri ilə bağlı mandat alverinə girişib"

***Öz liderinə qaşrı xəyanətlər törətdikdən, onu həm mənəvi, mən də fiziki cəhətdən məhv etdikdən sonra Xalq Cəbhəsi adını qəsb etmiş Əli Kərimlinin bu dəfə heç bir çıxış yolunun qalmadığı aşkar görünməkdədir. Onun Sevinc Osmanqızının canlı yayımına qoşularaq, "hakimiyyətə gəlmək şansımız yoxdur" tipli fikirlər irəli sürməsi, artıq özü-özlüyündə bir sıra məqamları daha da açığa çıxarmış olur.***

Maraqlı məqamlardan biri də Ə.Kərimlinin iqtidar tərəfindən ifşa olunmasıdır ki, məhz bu amil belə deməyə əsas yaradır ki, AXCP sədrinin iyrənc əməlləri mövzusunda hakim partiya ilə bir çox müxalifət partiyalarının mövqeləri üst-üstə düşür. Beləliklə, məqamlar çoxdur...

### Siyavuş Novruzov: "Təsadüfi deyil ki, həmin vaxt daxili işlər naziri işləyən İsgəndər Həmidov həmişə onu FƏRARİ adlandırırdı"

Məsələn, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov Ə.Kərimlinin qarşısına çıxan müxalifətçilərin hər birini "hakimiyyətə işləyir" ittihamına tutarlı cavab vermişdi. O, qeyd etmişdi ki, ötən əsrin 90-cı illərində Azərbaycan Dövlət Universitetində (indiki BDU) Ə.Kərimli komsomola katib seçilmək üçün dostlarını satmaqla məşğul olub. Sitat: "Dostlarını necə satdığı həmin dövrdə oxuyan tələbələrin gözü qarşısında olub. Hamı bilir ki, Ə.Kərimli o zaman nə oyunlardan çıxıb və o dövrdəki rektorun, yumşaq dildə desək, "xəbərçi"si olub".

Əbəs deyil ki, bu günün özündə onun oğlu Türkel Kərmli də aşkar fərarідir və Azərbaycan Ordusunda xidmət etməkdən boyun qaçırır. Halbuki Prezident İlham Əliyevin oğlu hazırkı vaxtda da hərbi xidmətini şərəflə yerinə yetirir!

### "Əli Kərimli Elçibəyin Bakıda olmamasından istifadə edərək, hakimiyyətlə separat danışıqlara gedib"

Lakin bu da son deyil. Siyavuş



Novruzov hələ bir neçə il öncə də, bu mövzuya toxunaraq, deyib ki, hələ 2000-ci ildə "Yurd" şefi Kərimli AXCP-də Əbülfəz Elçibəyə qarşı xəyanət etmişdi. Belə ki, parlament seçkilərində Əbülfəz Elçibəy belə bir məsələ qaldırmışdı ki, AXCP ilə Müsavat bir yerdə namizədlərini irəli sürsünlər: "Bunu AXCP-də və Müsavatda olanlar da bilir. Siyahı belə tərtib olunmalı idi: birinci Elçibəyin özü, sonra İsa Qəmbər, Mirmahmud Fəttayev (Mirəlioğlu), ondan sonra bir nəfər Müsavatdan, bir nəfər AXCP-dən namizəd olurdu. Lakin Elçibəyin ağır xəstəliyindən əvvəlcədən məlumatlı olan Ə.Kərimli onun Bakıda olmamasından istifadə edərək, hakimiyyətlə separat danışıqlara getdi və beləliklə, Müsavatla olan koalisiyanı pozdu. Həmin dövrdə, məhz Ə.Kərimlinin əməlləri nəticəsində AXCP "yurdçular"a və "klassiklər"ə bölündü. Məhz onun iqtidarla öz müttəfiqlərindən xəbərsiz apardığı danışıqlar nəticəsində partiyası Milli Məclisdə 4 proporsional və bir majoritar yer əldə etdi. Hətta o, partiyasının proporsional seçkidə iştirak etməsini təmin edən 50 min seçici imzasının toplanmasında da hakimiyyət tərəfindən geniş və hərtərəfli dəstək gördü".

### "Cəmil Həsənli Əli Kərimli ilə olan danışıqlarda iştirak edib"

YAP təmsilçisi deyib ki, həmin dövrdə Ə.Kərimli dəfələrlə Azərbaycan Respublikasının yüksək vəzifəli rəsmi şəxsləri ilə xaricdə görüşmək arzusunda olduğunu bizlərə bəyan edib: "Görüş yeri kimi Strasburq və ya London seçilmişdi. Mən şəxsən bu danışıqların iştirakçısıyam və danışıqların aparıldığı yer Tofiq Bəhramov adına stadionun yanındakı "Xankəndi" restoranı idi. Ə.Kərimlinin bu əməllərinin şahidləri də var. Bu gün o insanların bir hissəsi Milli Məclisdə təmsil olunur. Cəmil Həsənli, o dövrdə AXCP-nin funksionerləri və hazırda deputat olanlardan da, bilavasitə bu danışıqlarda iştirak edənlər var. Ə.Kərimli şəxsi mənafeyi naminə ömrü boyu öz dostlarını, yoldaşlarını satmaqla məşğul olub".

### "Siyasi fəaliyyətdə müqəddəs dəyər tanımayan Əli Kərimlinin, ümumiyyətlə şəxsi mövqeyi olmayıb"

Siyavuş Novruzov deyib ki, Ə.Kərimlinin bu əməlləri indi də davam edir və o, heç də demokratik fikirli fərd deyil, əksinə, avtoritar və özündən müştəbehdir: "Kimsə onun fikrinin əleyhinə çıxırsa, söz-fikir azadlığı irəli sürürsə, dərhal həmin şəxs partiya sıralarından xaric olunur. Digər partiya sədrlərinə qarşı da çox kəskin nifrət bəsləyir və altdan-altdan mübarizə aparır, onlar haqqında xoşagəlməz yazılar yazdırır. Yəni bütün hallarda Ə.Kərimli öz silahdaşlarını satıb".

Millət vəkili Siyavuş Novruzov Kərimlinin əsl tərbiyəsiz və mənəviyyatsız bir şəxs olduğunu bu ifadələri ilə sona çatdırıb: "Bu gün vaxtilə Ümummilli Lider Heydər Əliyev Milli Məclisə gələrkən, ayağa qalxmamağı ilə "fəxr edən" bu şəxs dövlət başçısı və özündən yaşca qat-qat böyük olan bir insanın qarşısındakı elementar tərbiyəsizliyini özü üçün "piar"a çevirəcək qədər mənəviyyatsızdır. Yəni ki, həyatda heç vaxt ali prinsipləri rəhbər tutmayan və siyasi fəaliyyətdə müqəddəs dəyər tanımayan Ə.Kərimlinin, ümumiyyətlə, şəxsi mövqeyi olmayıb, xarici təşkilatların buna dediklərini təkrar edib və ya öz yaxın ətrafını satmaqla məşğul olub. Xalq Cəbhəsi iki yerə bölünən dövrdə öz təşkilatını qeydiyyatdan keçirmək üçün iqtidarla bütün danışıqlara gedib. Mən bunun şahidiyəm, lazım olsa faktlarla, şahidlərlə sübuta yetirməyə hazıram".

Daha bir fakta əsaslanan fikirlərində Siyavuş Novruzov bildirib ki, Ə.Kərimli bir zamanlar deputat olmaq üçün hakimiyyətlə razılığa gedib. Məsələ ondadır ki, Siyavuş Novruzov qədər məlumatlı mənbə də bildirib ki, Ə.Kərimli artıq hakimiyyətlə 2020-ci ilin parlament seçkiləri ilə bağlı mandat alverinə girişib. Hətta müəyyən razılıqların olduğu da deyilir. Belə ki, Ə.Kərimli hakimiyyətlə müzakirələrində qaynı Ellnur Seyidovun tezliklə azadlığa buraxılmasına razılıq əldə edib.

Göründüyü kimi, AXCP sədri adını işğal etmiş bu fərd barədə kifayət qədər təsdiqedici məlumatlar var və onların qısa zamanda ictimai rəyə açıqlanacağını düşünmək mümkündür.

***Rövşən NURƏDDİNOĞLU***

# "Sumqayıt hadisələri: təxribatçı ermənilər biri-birilərini tanımaq üçün üzərində xüsusi işarələr olan qara plaşlar geyirdilər"

## "Qriqoryan Sumqayıt hadisələrindən əvvəl Ermənistanın sabiq prezidenti Serj Sərkisyanla görüşüb və ondan siyahı alıb"

***1988-ci il fevralın 27-29-da Sumqayıtda erməni millətçiləri tərəfindən törədilən təxribat nəticəsində 32 nəfər öldürüldü. O zaman "Exo Sumqayıta" qəzetinin baş redaktoru işləyən Əməkdar jurnalist Eyruz Məmmədov 31 ildir ki, həmin hadisələrin tədqiqatı ilə məşğuldur. Professor Ramazan Məmmədovla birgə yazdığı "Sumqayıt, 1988. Cinayət və cəza" adlı kitabı Azərbaycan, türk, rus, ingilis, ispan dillərinə tərcümə olunaraq, dünya ictimaiyyətinə çatdırılıb.***

AZƏRTAC xəbər verir ki, Eyruz Məmmədovun Sumqayıtda baş verən kütləvi iğtişaşların ildönümü ərəfəsində 1988-1993-cü illərdə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Sumqayıt şöbəsinin sədri işləmiş Vladimir Nazaroviç Lebedevdən aldığı müsahibədə bəzi məsələlərə aydınlıq gətirilir.



Bu barədə danışan E.Məmmədov deyib: "V.Lebedev bildirib ki, 1980-ci illərin əvvəllərində Amerikanın Kaliforniya ştatında və Fransanın Paris şəhərində yaşayan erməni oliqarxları Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün ilk addımı ədavət yaradacaq bir kitabın çap olunmasında görür və bunun üçün müəllif axtarışına çıxırlar. Onlar sovetlər birliyində qatı millətçiliyi ilə seçilən və az-çox ittifaqda tanınan, "Literaturnaya qazeta"nın Ermənistan üzrə xüsusi müxbiri Zori Balayanın üzərində dayanırlar. Bu, azərbaycanlılara, türklərə nifrət edən erməni lobbisinin ürəyincə idi. "Ocaq" kitabının müəllifi Zori Balayan olsa da, onun ideyası, kitabın əsas konturları ABŞ-da cızılıb. Qalmışdı onu sistemləşdirib kitab halına salmaq. Z.Balayan bu işin öhdəsində bacarıqla gəldi və "Ocaq" kitabı Amerikada rus dilində çap olundu. Bu, kitab erməni oliqarxlarının maddi dəstəyi ilə ayrı-ayrı vaxtlarda 4 dəfə, müxtəlif dillərdə çap olundu, dünyada geniş təbliğ edilməyə başlandı. Həyata keçiriləcək məkrli planda Sumqayıt hadisələri də yer alırdı..."

Müsahibədən məlum olur ki, 1988-ci ilin ortalarında DTK-nın polkovniki Poponinin rəhbərliyi ilə Moskvadan Sumqayıta 30 əməkdaş gəlib. Onların təşkilatçılığı ilə erməni millətindən olan 40-dan çox ekstremist qrup Sumqayıtda gələrək qan töküb. Lebedevin "Sumqayıtda baş verən hadisələrdə Eduard Qriqoryanın əlindəki siyahını ona kim verib" sualına cavabı belə olub: hüquq-mühafizə orqanlarının arxiv materiallarında göstərilib ki, Qriqoryan 1988-ci ilin fevral ayının ortalarında iki dəfə Xankəndində olub, Ermənistanın sabiq prezidenti Serj Sərkisyanla görüşüb və siyahını da ondan alıb. Sumqayıtda qətlə yetirilən ermənilər "Krunk" cəmiyyətinə üzvlük haqqından imtina edən vətəndaşlar idi.

"V.Lebedevin dediyinə görə, Ermənistanın rəhbərliyi Moskva vasitəsilə Qriqoryanı Azərbaycandan alıb Stavropol vilayətinin Budyonovsk şəhərində yerləşən cəzaçəkmə məntəqəsinə aparıb. Ona orada gözəl şərait yaradılıb. Amerikadan Qriqoryana ayda bir dəfə ərzaq və bəzi məişət əşyalarından ibarət böyük bir bağlama gəlirdi. Həyat yoldaşı Rita ayda iki dəfə onun yanında qalırdı. Vladimir Nazaroviç müsahibədə maraqlı bir məsələyə də toxunub. Sumqayıtda baş verən hadisələr zamanı qara plaş geyinmiş insanların təxribatlarını ciddi araşdırdıq. Bir neçəsini sorğu-sual etdik və onları Moskvaya ekspertizaya göndərdik. Məlum oldu ki, İkinci Dünya müharibəsində almanlar təxribat törətmək üçün ermənilərdən ibarət xüsusi təyinatlı dəstələr hazırlayıblar. İşarə vermək, uzaqdan biri-birilərini tanımaq üçün qara plaşların üzərində xüsusi işarələr tikilmişdi. Müharibədən sonra erməni terrorçuları həmin qara plaşlardan öz mənfur məqsədləri üçün istifadə etməyə başladılar. Qara plaşlar bir növ parol, işarə idi. Sumqayıt hadisələrində də erməni təxribatçılar bundan məharətlə istifadə etdilər. Buradan belə nəticə çıxartmaq olar ki, erməni millətçiləri faşist ideologiyasının daşıyıcılarıdır və 60-70 il ərzində dünyanın müxtəlif ölkələrində törədikləri təxribatlar, diplomatlara, dinc əhaliyə qarşı terror aktları, həmçinin Türkiyə səfirliklərində partlayışlar da bunu sübut edir", - deyə Eyruz Məmmədov bildirib.

# Ermənistanın sabiq baş naziri Paşinyan hökuməti əleyhinə məsləhətləşmələr aparır



Ermənistanın sabiq baş naziri Karen Karapetyan ölkədəki siyasi qüvvələrlə Paşinyan hökuməti əleyhinə məsləhətləşmələr aparır. AZƏRTAC xəbər verir ki, bu məlumatı Ermənistanda nəşr olunan "Jamanak" qəzeti yayıb. Qeyd olunub ki, sabiq baş nazir siyasətçilərlə Yerevandakı mehmanxanalardan birində görüşlər keçirir. Qəzet yazır: "Görüşlərdə Karapetyan öz həmsöhbətləri ilə Ermənistanda iqtisadi və siyasi sistemin deqradasiyası məsələlərini müzakirə edir, həmçinin yaranmış vəziyyətdən birgə çıxış yollarını təklif edir". Karen Karapetyan 2016-cı ilin sentyabrından 2018-ci ilin aprelinədək Ermənistan hökumətinə başçılıq edib. Həmin ilin sonunda Serj Sarkisyanın rəhbəri olduğu Respublika partiyasının sıralarını da tərk edib.

# Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş imicini daha da möhkəmləndirir

*Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının keçmiş baş katibi, "İdman Bütövlüyü üzrə Qlobal Alyans"ın vitse-prezidenti Ramil Həsənin yap.org.az-a müsahibəsi*

***- Ramil müəllim, milli maraqlara əsaslanan xarici siyasət həyata keçirən Azərbaycanın beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir, nüfuzu daha da artır. Bu barədə nə deyə bilərsiniz?***



- Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik və milli maraqlara əsaslanan xarici siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu strateji kurs konseptual əsaslara söykənir, Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini və beynəlxalq nüfuzunun artmasını təmin edir.

Azərbaycanın xarici siyasət kursunun ən mühüm prioriteti Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll olunmasıdır. Ölkəmiz bu istiqamətdə qətiyyətli mövqe nümayiş etdirir. Bununla yanaşı, Prezident İlham Əliyev Azərbaycanın sülhə hazır və mehriban qonşuluq tərəfdarı olduğunu bəyan edib. Amma bu, Azərbaycanın uzun müddət işğala göz yumacağı, mövcud status-kvonu qəbul edəcəyi mənasına gəlmir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan dövləti və xalqı heç vaxt işğalla barışmayacaq. Qeyd etdiyim kimi, Azərbaycan praqmatik xarici siyasətini davam etdirərək milli maraqların təmin edilməsinə nail olur, eyni zamanda, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş imicini daha da gücləndirir. Ölkəmizin regionda yaratdığı yeni reallıqlar Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə tam zəmin formalaşdırıb. Bununla yanaşı, Azərbaycan istənilən yolla öz ərazi bütövlüyünü bərpa etmək iqtidarındadır.

Prezident İlham Əliyev Real televiziyasına müsahibəsində Azərbaycanın xarici siyasət kursu ilə bağlı mühüm fikirlər səsləndirdi. Dövlətimizin başçısı ölkəmizin yüksək beynəlxalq nüfuza malik olduğunu bir daha diqqətə çatdırdı. Şübhəsiz ki, Azərbaycanın BMT, Avropa Şurası, ATƏT, İƏT, Türk Şurası kimi beynəlxalq təşkilatlarda uğurla təmsil olunması ölkəmizin yüksək nüfuzundan xəbər verir. Respublikamızın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olması da bunun əyani ifadəsidir. Digər tərəfdən, Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin nəticəsidir ki Azərbaycan vətəndaşları müxtəlif beynəlxalq təşkilatlarda yüksək vəzifələrdə təmsil olunurlar. Bu ölkəmizə olan etimadın göstəricisidir.

Azərbaycanın təşəbbüsü və liderliyi ilə TAP, TANAP, Cənub Qaz Dəhlizi, BTC, BTQ kimi tarixi layihələr gerçəkləşdirilib. Bu layihələrə Çin, Qazaxıstan və digər Orta Asiya ölkələrinin qoşulmaq niyyətlərini ifadə etmələri Azərbaycanın beynəlxalq müsnasibətlər sistemində artan rolunun və etibarlı tərəfdaş kimi qəbul olunmasının ifadəsidir.

Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasətin bəhrələridir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) baş katibi vəzifəsində işləmiş şəxs kimi deyə bilərəm ki, həm türkdilli ölkələr səviyyəsində, həm regionda, həm də BMT və digər beynəlxalq qurumlar səviyyəsində Azərbaycan Prezidentinin şəxsinə böyük hörmət var. Bu da, şübhəsiz ki, ölkənin beynəlxalq imicinə müsbət təsir göstərir. Şəxsi münasibətlər və liderlik keyfiyyətləri xarici siyasətdə və dövlətlərarası münasibətlərdə unikal rol oynayır. Prezident İlham Əliyevin Türkiyə, Rusiya, Qazaxıstan, Belarus və digər ölkələrin liderləri ilə şəxsi dostluq münasibətləri dövlətlərimiz arasında əlaqələrin inkişafına böyük töhfə verir.

***- Azərbaycanın dünyada yüksək nüfuzunun göstəricilərindən biri ölkəmizin beynəlxalq təşkilatlarda uğurla təmsil olunması, respublikamıza etimadın ifadə edilməsidir. Bu baxımdan, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün Bakı şəhərində keçirilməsini, həmçinin 2019-2022-ci illərdə təşkilata sədrliyin Azərbaycana həvalə edilməsini necə dəyərləndirirsiniz?***

- Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etməsi böyük əhəmiyyətə malikdir. Bilirsiniz ki, ölkəmiz 2011-ci ildə bu təşkilata üzv olub və Qoşulmama Hərəkatının Zirvə toplantısının Bakıda keçirilməsi haqqında qərar 2016-cı ildə qəbul olunub. Daha dəqiq desək, 2016-cı ilin sentyabrında Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illərdə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdilliklə qərar qəbul olunması respublikamızın artan nüfuzunun göstəricisidir.

Bu təşkilat üzvləri bloklara qoşulmayan, öz ərazisində xarici hərbi baza yerləşdirməyən, beynəlxalq münasibətlər sistemində mövcud olan konfliktlərin sülh yolu ilə həll olunmasına dair mövqe ortaya qoyan bir hərəkatdır. Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün Bakı şəhərində keçirilməsi ölkəmizə mühüm dividentlər gətirəcək. Ümumiyyətlə, nüfuzlu beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi regional və beynəlxalq təhlükəsizlik, əməkdaşlıq baxımından xüsusi önəm kəsb edir. Qoşulmama Hərəkatına sədrlik də Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini gücləndirməsi, ikitərəfli və çoxtərəfli münasibətlərini inkişaf etdirməsi baxımından çox əhəmiyyətlidir.

***- Ramil müəllim, bu il həmçinin Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılmasının 10 illik yubileyi ərəfəsində təşkilatın zirvə toplantısına ev sahibliyi edəcək. Bununla bağlı nə söyləmək olar?***

- Bilirsiniz ki, Türk Şurası türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvanda keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılıb. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləridir. Təsadüfi deyil ki, 2019-cu ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Dövlət Başçılarının Zirvə görüşü Azərbaycanda keçiriləcək. Qeyd etmək istərdim ki, 2013-cü ildə Dövlət Başçılarının Zirvə görüşü Qəbələ şəhərində keçirilib. Bu da Azərbaycanın türkdilli dövlətlər arasında nə qədər inamlı və əvəzsiz körpü rolu oynadığının bariz nümunələrindən biri kimi göstərilə bilər. Ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi dörd əsas sütun üzərində qurulmuş olan Türk Şurası özünü bu ümumiliklərlə məhdudlaşdırmır. Daha doğrusu, təşkilat üzv dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, gömrük, turizm və digər müxtəlif sahələr kimi mövcud ikitərəfli əməkdaşlıq sahələrini genişləndirərək regiona fayda verməsi üçün çoxtərəfli əməkdaşlığa çevrilmək niyyəti daşıyır. Təşkilat, eyni zamanda, tarixi İpək Yolunun bərpası, regional türk diasporu mərkəzlərinin qurulması kimi əhəmiyyətli mövzularda önəmli qərarlar qəbul etmişdir.

Qeyd etdiyim kimi, bu il Türk Şurasının 10 illik yubileyidir. Ona görə də bu zirvə toplantısının xüsusi əhəmiyyəti var. Təşkilatın həm 10 illik yubileyi, həm də zirvə toplantısı yeniliklərə səhnə olacaq. Türk Şurasının ötən sammitində Özbəkistan iştirak edib. Budəfəki zirvə toplantısında bütün Türk dövlətlərinin iştirakı tarixi anlara şahidlik etmək baxımından xüsusi əhəmiyyətə malik olar.

Azərbaycan Türk dövlətləri arasında daim əlaqələndirici rol oynayır. Bu həm coğrafi mövqeyimizə, həm tarixi-mədəni köklərimizə, həm də körpü rolunda çıxış etməyimizə görədir. Azərbaycan dili Türk dilləri sırasında ləhcə və dialekt yaxınlığına görə həm Anadolu, həm də Orta Asiya türklərinin başa düşdüyü dildir. Bütövlükdə, Tük dövlətlərinin iqtisadi, siyasi, mədəni, humanitar sahələrdə əməkdaşlığı və çoxtərəfli münasibətlərinin güclənməsi başqa dövlətlərə qarşı yönəlməyib. Türkdilli ölkələr arasında siyasi və iqtisadi əməkdaşlığı dövlətlərimizin milli maraqlarına əsaslanır və yüksələn xətlə inkişaf edir.

***- Tolerantlıq nümunəsi olan Azərbaycan həm də beynəlxalq əməkdaşlıq məkanına çevrilib. Mötəbər beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi nəyin ifadəsidir?***

- Doğrudur, Cənubi Qafqazın lider dövləti olan Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanıdır. Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu və digər tədbirlər məhz Azərbaycanda keçirilir. Yəni ölkəmiz nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edir, Azərbaycanda qlobal əhəmiyyətli məsələlər müzakirə predmetinə çevrilir. Bu, hər şeydən əvvəl, Azərbaycana və Azərbaycan Prezidentinə olan yüksək inam və etimadın göstəricisidir. Bu etimad Prezident İlham Əliyevin rəhbərliyi ilə uzun illər ərzində həyata keçirilən uğurlu strateji xəttin real nəticəsidir.

Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsini şərtləndirən mühüm amillərdən biri ölkəmizdə etibarlı sabitlik və təhlükəsizlik mühitinin mövcud olmasıdır. Tolerantlıq nümunəsi olan ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar, ölkəmiz dünyada sabitlik adası kimi tanınır. Ölkəmizdə beynəlxalq səviyyəli siyasi, iqtisadi, humanitar, mədəni tədbirlərin keçirilməsi artıq ənənə halını alıb. O cümlədən, mötəbər beynəlxalq idman tədbirlərinin Azərbaycanda keçirilməsi mühüm göstəricidir. Digər tərəfdən Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ölkə reallıqlarının təbliği baxımından da mühüm əhəmiyyətə malikdir.

***- Azərbaycanın inkişafından və beynəlxalq mövqeyinin davamlı olaraq möhkəmlənməsindən ciddi narahatlıq keçirən anti-Azərbaycan dairələri və "beşinci kolon" nümayəndələri ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Bunun arxasında duran səbəblər nədir?***

- Azərbaycan uğurla inkişaf edir, ölkəmizdə bütün sahələri əhatə edən məqsədyönlü islahatlar həyata keçirilir. Azərbaycanın dinamik inkişafı və əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə də yüksək qiymətləndirilir. Şübhəsiz ki, ölkəmizin inkişafı bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Onlar ölkəmizin əldə etdiyi uğurları həzm edə bilmirlər. Əlbəttə, antimilli mövqedə duran bu satqın qruplar qaragüruh dəstələrdir. Bu ünsürlər daxildə və xaricdə Azərbaycanın əleyhinə qarayaxma kampaniyası aparırlar.

Bütövlükdə, anti-Azərbaycan dairələr və antimilli ünsürlər ölkəmizin müsbət beynəlxalq imicinə kölgə salmağa çalışırlar. Müxtəlif xarici fondlar tərəfindən maliyyələşdirilən bu dəstələr konkret olaraq Azərbaycanın milli maraqlarına zidd mövqedən çıxış edirlər. Belələri həmişə olub və bundan sonra da olacaq. Amma təbii ki, bütün bu cəhdlər faydasızdır və heç bir nəticə verməyəcək. Azərbaycanı öz inkişaf yolundan və müstəqil siyasətindən bu cür vasitələrlə döndərmək mümkün deyil. Azərbaycan özünün doğru yolu ilə inamla irəliləyir.

## Heydər Əliyev Mərkəzində fransız heykəltəraş Mauro Kordanın sərgisi açılacaq




Martın 15-də Heydər Əliyev Mərkəzində fransız heykəltəraş Mauro Kordanın "Zoospektiv və morfospektiv" adlı sərgisi açılacaq. Mərkəzdən AZƏRTAC-a bildirilib Ki, sərgidə müəllifin 40-dək əsəri nümayiş olunacaq.

M.Kordanın yaradıcılığında portret janrı mühüm yer tutur. O, yaratdığı əsərlərlə insanın daxili aləmini ən müxtəlif mühit və vəziyyətlərdə açır və buna nail olmaq üçün bürünc, keramika, dəmir, mərmər və digər müxtəlif materiallardan istifadə edir. Mauro Korda yaradıcılığında heyvanlar aləminə də xüsusi yer verir. Bu əsərlər bir sıra heyvan növlərinin sürətlə tükənməsi kimi qlobal məsələlərə diqqət yönəltmək məqsədi daşıyır. Heykəltəraş vəhşi təbiət və ya zooparklardakı adi heyvan növlərinin tezliklə onun təqdim etdiyi fantastik məxluqlar kimi görünə biləcəyi mesajını verir. Heydər Əliyev Mərkəzindəki sərgi sentyabrın 15-dək davam edəcək.

# "Prezidentin problemli kreditlər məsələsini həll etməsi xalqa xidmətin ən yüksək nümunəsidir"



***"Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı fərman, ilk növbədə, dövlətimizin başçısı tərəfindən başladılan sosial inqilabın mühüm tərkib hissələrindəndir". Bunu Trend-ə açıqlamasında "Səs" Media Qrupun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.***

O bildirib ki, bu qərar eyni zamanda dünyaya təqdim edilən müasir Azərbaycan modelinin sosial məsələlərin həllində liderliyinin bariz göstəricisidir: "Sirr deyil ki, artıq bir neçə ildir manatın dollara nisbətdə məzənnəsi ucuzlaşmışdı və əhali daha öncə götürdüyü kredit borclarını əvvəlki məzənnə ilə ödəyə bilmirdi, bəzən də işlər məhkəmələrə, digər instansiyalara qədər gedib çıxırdı. Bu isə bank kreditlərində problemləri yaranmış xalqı narahat edirdi. Belə olan halda, cənab İlham Əliyev öz inqilabi qərarları ilə bir daha sübut etdi ki, dövlət xalq üçündür və xalqa xidmət etməlidir. Əbəs deyil ki, Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında xalqın xidmətçisi olduğunu və fəaliyyətini bilavasitə xalqa xidmət üzərində qurduğunu vurğulayıb. Bu baxımdan Prezident İlham Əliyev problemli kreditlər məsələsini həll etməklə xalqa xidmətin ən yüksək nümunəsini göstərdi".

Ekspert qeyd edib ki, dövlətimizin başçısı qeyd edilən fikirlərlə yanaşı, hələ 16 il öncə andiçmə mərasimində verdiyi vədinə nə qədər sadiq olduğunu növbəti dəfə sübuta yetirdi: "Bəli, bu addım həm də cənab İlham Əliyevin sözünə sadiq lider olduğunu isbatlayır. Əlbəttə ki, Azərbaycan xalqı da bu qərardan böyük sevinc hissi keçirir. Təsəvvürünüzə gətirin ki, illərlə yığılmış, ödənilməyəcək vəziyyətə qədər gəlib çatmış problemli bank kreditləri dövlət başçımızın bir fərmanı ilə həll edildi, bununla da problemli kreditlər məsələsinə birdəfəlik son qoyuldu. Əlbəttə ki, yalnız bu fərman deyil, digər sosial yönümlü inqilabi sərəncam və fərmanlar da dövlətin potensialının xalqın mənafeyi üçün istifadə olunduğunu nümayiş etdirən amillərdəndir. Çünki Azərbaycanda əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətidir ki, Prezident İlham Əliyev bu istiqaməti əsas olaraq götürməkdədir".

B.Quliyevin fikrincə, bu, eyni zamanda digər bir faktoru da diqqətə çatdırır ki, son dövrdə ölkəmizdə makroiqtisadi sabitlik təmin olunub, iqtisadi inkişaf templəri bərpa edilərək artıb: "Bunun nəticəsidir ki, əhalinin xarici valyutada olan problemli kredit borclarının ödənilməsinə dövlət öz dəstəyini göstərdi. Artıq birmənalı şəkildə, əminliklə deyə bilərik ki, cari ilin əvvəlindən sosial sahələr üzrə qəbul olunmuş qərarlar, eləcə də haqqında bəhs etdiyimiz fərman qarşıda da atılacaq inqilabi qərarların bir hissəsidir və bunun davamlı xarakter alacağına hər birimiz, hər bir Azərbaycan vətəndaşı qətiyyətlə inanır".

# Sosial inqilab nümunəsi

***Əhalinin rifahını günü-gündən yaxşılaşdırmaq, sosial müdafiəsini təmin etmək və həyat səviyyəsini yüksəltmək dövlətimizin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətidir. Sosial yönümlü qərarların verilməsi, vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, artıq Azərbaycanda ənənə halını alıb. Bu ənənə ölkə başçısının, Prezident İlham Əliyevin iradəsi, eyni zamanda, rəhbərliyi ilə uğurla davam etdirilir.***

Ölkəmizdə əhalinin rifah halının yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi təsdiq edir ki, dövlət siyasətinin mərkəzində vətəndaş amili dayanır və Azərbaycan vətəndaşı daim diqqət mərkəzindədir. Təsdiq edir ki, Azərbaycan dövləti vətəndaşların qayğısına qalır və mütəmadi olaraq, bu istiqamətdə işlər aparır. Vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün yeni iş yerlərinin açılması, məşğulluqla bağlı məsələlərin həll edilməsi, işsizliyin aradan qaldırılması, bir-birinin ardınca sosial layihələrin hazırlanması və tətbiq edilməsi buna əyani sübutdur.

Qlobal iqtisadi böhran, dünyada hökm sürən maliyyə böhranı, sözsüz ki, təsirsiz ötüşə bilməzdi və ötüşmədi də. Qeyd olunan böhranla əlaqədar enerji resurslarının qiymətlərinin aşağı düşməsi Azərbaycan iqtisadiyyatına da öz təsirlərini göstərdiyi və nəticədə, əhalinin müəyyən qrupunun ödəmə qabiliyyətinin zəifləməsi də inkar edilə bilməz. Qlobal iqtisadi və maliyyə böhranı səbəbindən, ölkəmizdə xarici valyuta ilə borc alan vətəndaşların banklar qarşısında öhdəliklərinin artması, hətta artan bu öhdəliklərə görə məhkəmə müstəvisində bu məsələlərə baxılma hallarının çoxalması da günün reallığıdır.

## Problemli kreditlərin həlli ölkə başçısının iradəsi ilə reallaşdırılan ciddi sosial təşəbbüsdür

Problemin optimal həlli yollarının tapılması, məsələnin ən əlverişli şəkildə həll edilməsi üçün hələ ötən 2018-ci ildən ictimai müzakirələrin aparılması heç də təsadüfi deyildi. Azərbaycan Prezidentinin tapşırığı ilə hökumət bu istiqamətdə fəal iş aparır, təkliflər hazırlanırdı ki, bu gün biz bu işin müsbət nəticələrinin şahidiyik. Sözügedən məsələ ilə bağlı, eyni zamanda, Milli Məclisdə də müzakirələr aparılması, müxtəlif təkliflər irəli sürülməsi təsdiq edir ki, problemli kreditlərin həlli ölkə başçısının iradəsi ilə reallaşdırılan ciddi sosial təşəbbüsdür. Bu təşəbbüs enerji resurslarının qiymətlərinin azalması və baş verən devalvasiya səbəbindən vətəndaşların üzləşdiyi maliyyə itkisini qarşılamaq, onların maliyyə yükünü azaltmaq məqsədi daşıyır.

Sözsüz ki, xarici valyuta ilə əldə etdikləri kreditlərə görə borca düşən vətəndaşların maliyyə yükünün azaldılması üçün dövlətin maliyyə imkanları, bir sözlə, maliyyə resurslarının olması tələb olunur. Sevindirici haldır ki, son dövrdə respublikamızda makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf tempinin bərpa edilməsi və artması maliyyə imkanlarının artması ilə nəticələnib. Hazırda bu artan maliyyə imkanları, əldə olunan resurslar əhalinin xarici valyutada olan borclarının ödənilməsinə dövlət dəstəyinin göstərilməsinə imkan verir.

## Ölkə başçımızın iradəsi və rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü tədbirlərin və dövlətimizin yürütdüyü sosial siyasətin dünyada analoqu yoxdur

Müqaisəli şəkildə yanaşsaq, görərik ki, bəzi ölkələrdə də analoji təşəbbüslər irəli sürülsə də, bu təşəbbüslər reallaşdırılmayıb. Bu təşəbbüslərin reallaşdırılması bir çox ölkələrdə dövlət üçün ciddi problemlər vəd etdiyi səbəbindən, reallaşdırılmayıb və ümumiyyətlə, təxirə salınıb. Ən yaxşı halda, bəzi ölkələrdə buna bənzər təşəbbüslərin reallaşdırılması bəlli olmayan müddətə kimi uzadılıb. Azərbaycanda isə bu təşəbbüs, ən qısa zamanda reallaşdırılıb və dərhal öz həllini tapıbsa, deməli, bu müqaisə təsdiq edir ki, ölkəmiz digərlərinə örnək kimi də qəbul olunmalıdır.




Bizim digər ölkələrlə fərqimiz ondan ibarətdir ki, bizdə bütün məsələlər öncədən yetərincə araşdırılıb və tam əminliklə qərar verirlib. Problemin ciddiliyi, onun həllinin vacibliyi məsələnin həllini, təşəbbüsün realladırılmasını labüd edib. Bu baxımdan, irəli sürülən təşəbbüsün reallaşdırılmasının büdcəyə təsiri, maliyyə imkanları, səmərəli tətbiq mexanizmi əvvəlcədən nəzərə alınıb və müvafiq səmərəli variant ortaya qoyularaq təşəbbüs təxirə salınmayıb. Bir sözlə, vətəndaşların qayğısına qalmaq, yaşayış şəraitinin yaxşılaşdırılmasını təmin etmək, maliyyə yükünü azaltmaq üçün dövlət yetərincə addımlar atıb və nəticə də göz qabağındadır.

Aparılan müqaisəli təhlil də təsdiq edir ki, ölkə başçımızın iradəsi və rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü tədbirlərin, dövlətimizin yürütdüyü sosial siyasətin dünyada analoqu yoxdur. Təkcə bu il sosial sahədə qəbul olunan qərarlar, həmçinin problemli kreditlərlə bağlı qərarlar bunun əyani şəkildə isbatıdır. İndi bütün dünya ictimaiyyəti etiraf etmək məcburiyyətindədir ki, ölkə başçımızın iradəsi, şəxsi təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü tədbirlər, eləcə də, problemli kreditlərin həlli inqlabi qərarlardır. Etiraf edilməlidir ki, Prezident İlham Əliyevin sosial sahədə qəbul etdiyi qərarlar, məhz sosial inqilab nümunəsidir.

***İnam HACIYEV***

# "Prezident vətəndaşla bank arasında etimad mühitini bərpa etdi"

***"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" verdiyi Fərman çoxdan gözlənilirdi. Bilirsiniz ki, ölkədə 2015-ci ildə baş vermiş devalvasiyadan sonra dollarla kredit götürən vətəndaşların çox ciddi problemləri yaranmışdı. Bununla bağlı uzun müddət idi ki, cəmiyyətdə, parlament müstəvisində, mətbuatda müzakirələr gedirdi və problemli kreditlər məsələsinin həlli ilə bağlı müxtəlif təkliflər var idi". Bunu SİA-ya açıqlamasında "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev deyib.***



Baş redaktorun sözlərinə görə, son müşavirədə də cənab Prezidentin qeyd etdiyi kimi, hökumət bu problemin həlli üçün İşçi Qrup yaratmışdı: "Ölkə başçısının fərmanı həmin İşçi Qrupun uzun müddətdir apardığı araşdırmaların nəticəsi kimi qəbul olunmalıdır. Bu fərman xeyli sayda vətəndaşın kredit yükünün aşağı salınmasına gətirib çıxaracaq. Başqa sözlə ifadə etsək xeyli sayda insanın banklar qarşısında öhdəlikləri azalacaq. Ümumilikdə problemli kreditlərin həll olunmasına 900 milyon manata yaxın vəsait sərf olunacaq. Təbii ki, bu gün imzalanan fərmandan da xeyli sayda insan yararlanacaq. Bu, ümumilikdə vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, sosial problemlərdən qurtulması üçün dövlətin bir qayğısı kimi qiymətləndirilməlidir. Bilirsiniz ki, son vaxtlar Azərbaycan hökuməti çox rezonans doğurmuş sosial paket icra etməkdədir. Belə ki, minimum pensiyalar, tələbələrin təqaüdləri, eləcə də məcburi köçkünlərə dövlət tərəfindən ödənilən yardımların məbləği artırıldı. Təbii ki, bu da həmin prosesin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Azərbaycan hökuməti vətəndaşların sosial rifahının yaxşılaşdırılması üçün mümkün olan bütün vasitələrdən istifadə edir.

Aparılan iqtisadi islahatlar nəticəsində əldə olunan əlavə gəlirlər vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə yönəldilir. Bu, alqışalayiq bir addımdır. Biz çox qısa müddət ərzində də bunun müsbət nəticələrini görəcəyik. Bundan həm vətəndaşlar, həm də bank sektoru faydalanacaqlar. Ümumiyyətlə, problemli kreditlər məsələsinin həlli vətəndaşlarla banklar arasındakı etimad mühitinin daha da yüksəlməsinə səbəb olacaq. Son nəticədə isə ölkədə ümumi iqtisadi fəallıq artacaq".

***Ceyhun Rasimoğlu***

# “Ölkə Prezidentinin qərarları bütün dünya üçün sosial inqilab nümunəsidir”

***“Əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini gücləndirmək, layiqli həyat səviyyəsini təmin etmək bu günümüzə və gələcəyimizə hesablanmış sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətlərindəndir.***

Bu günümüzdən dünənimizə, həmçinin qarşıdakı illər üçün müəyyənləşdirilən prioritetlərə nəzər yetirdikdə bu istiqamətdə atılan addımların sistemli xarakter daşıdığını, islahatların zamanın və dövrün tələblərinə uyğun olaraq təkmilləşdirildiyini daha aydın görürük. Yoxsulluq kimi sosial bəlanın aradan qaldırılması, işsizlik probleminin həlli istiqamətində atılan addımlar, məşğulluq strategiyasının uğurlu icrası, iqtisadi imkanlar fonunda artan maliyyə imkanlarının mühüm sosial-iqtisadi layihələrə yönəldilməsi və s. kimi tədbirlər vətəndaş amilinin dövlət siyasətinin əsasında dayandığını bir daha təsdiqləyir. Dövlətimizin başçısı İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə səsləndirilən “2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır” əminliyi də ötən illərin uğurlarına, eyni zamanda, cari ilin arxada qalan iki ayında əldə olunan sosial-iqtisadi göstəricilərə əsaslanır”. Bu fikirləri YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.



Vüqar Rəhimzadə qeyd edib ki, Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında da səsləndirilən rəqəmlər bu ilin aydın mənəzərəsini yaratmışdır: “Belə ki, dövlətimizin başçısı İlham Əliyevin imzaladığı Fərman və sərəncamlara uyğun olaraq ötən ilin mart ayından əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin orta hesabla 10 faiz artırılması təmin olunmuşdur. Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları 10 faiz artırılmışdır. Aztəminatlı ailələrin sosial müdafiəsi məqsədilə ünvanlı dövlət sosial yardım proqramının icrası davam etdirilərək, ötən ilin son ayında orta aylıq məbləğ 189 manata çatdırılmışdır. Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin həyata keçirdiyi sosial siyasətin əsas tərkib hissəsidir. Bu diqqət və qayğı cari ilin ilk aylarında atılan addımlarda da özünü aydın göstərir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən özünüməşğulluq proqramına cəlb olunanların əksəriyyəti də məhz ünvanlı yardım alanlar, məcburi köçkünlər, əlilliyi olanlar, şəhid ailələridir”.

V.Rəhimzadə onu da əlavə edib ki, atılan hər bir addım bu reallığı göstərir ki, dövlətin həyata keçirdiyi siyasətin təməlində vətəndaş amili dayanır. Özünü dünyaya sosial dövlət kimi təqdim edən Azərbaycan öz vətəndaşlarının yüksək rifahının təminatçısıdır: “Son bir ayda vətəndaşlara sevinc bəxş edən addımlar sırasında minimum əmək haqqının, pensiyaların artırılmasını, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə, sosial müavinətlərin, təqaüd sisteminin təkmilləşdirilməsinə dair, həmçinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması haqqında sərəncamların imzalanmasını qeyd etməliyik. bütün bunlar bir daha sübut edir ki, davamlı inkişafı, yüksək rifahı həyata keçirilən siyasətin əsas prinsipi kimi qəbul edən dövlətimizin başçısı İlham Əliyev iqtisadi tərəqqinin güclü sosial siyasətlə tamamlanmasını daim diqqət mərkəzində saxlayır”.

“Dövlətimizin başçısı İlham Əliyev daim bildirir ki, ehtiyac içində yaşayan vətəndaşlara dövlət həmişə öz yardımını göstərir və göstərəcək” söyləyən baş redaktor vurğulayıb ki, “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” fərmanlar bir daha ölkə Prezidentinin qərarlarının bütün dünya üçün sosial inqilab nümunəsi olmasına işıq salır: “Belə ki, son illərdə dünyanı bürüyən maliyyə və iqtisadi böhranla əlaqədar olaraq enerji resurslarının qiymətinin kəskin şəkildə aşağı düşməsi Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşmədi. Bunun nəticəsi olaraq əhalinin müəyyən hissəsinin ödəmə qabiliyyəti zəiflədi, xarici valyutada kredit almış vətəndaşların banklar qarşısında öhdəlikləri artdı, məsələ ilə bağlı məhkəmə müstəvisində baxılma halları çoxaldı. Dövlətimizin başçısının məlum Fərmanı son dövrlərdə ölkədə makroiqtisadi sabitliyin təmin olunmasına, iqtisadi inkişaf templərinin bərpa edilərək maliyyə imkanlarının genişlənməsinə, həmçinin əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyinin göstərilməsi üçün şərait yaratmışdır”.

Vüqar Rəhimzadə vurğulayıb ki, ölkəmizdə manatın devalvasiyasından sonra müzakirə olunan əsas məsələlərdən biri məhz əhalinin xarici valyutada kreditləri ilə bağlı oldu: “İctimai müzakirələr keçirildi, dövlətimizin başçısının tapşırığına uyğun olaraq hökumət bu istiqamətdə fəal iş apararaq təkliflərini səsləndirdi. Məsələ ilə bağlı Milli Məclisdə də müzakirələr keçirildi”.

Problemli kreditlərin həllinin Azərbaycan hakimiyyətinin ciddi sosial təşəbbüsü olduğunu deyən V.Rəhimzadə bildirib ki, atılan bu addım vətəndaşların maddi rifah halını daha da yüksəltmək, onların maliyyə yükünü azaltmaq məqsədi daşıyıyır: “Dövlətimizin başçısı İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə də bu mühüm məqam xüsusi qeyd edilmişdir ki, buna oxşar addımların atılması ilə bağlı bəzi ölkələrdə müvafiq qərarlar qəbul edilmişdir, ancaq onlar icra edilməmişdir. Cənab İlham Əliyev vurğulamışdır ki, yəni, burada xoş niyyətin olması əsas şərt deyil. Əlbəttə ki, düzgün təhlilin aparılması və vətəndaş üçün ən məqbul variantın seçilməsi əsasdır. Bununla yanaşı, maliyyə imkanlarımızın çatması məsələsi də ön plandadır. Ölkə Prezidenti bu inamı ifadə etmişdir ki, yaxın gələcəkdə bu məsələ də öz həllini tapacaq və Azərbaycan bu məsələnin həll ilə bağlı da öz liderliyini göstərəcək və çox ciddi nümunə göstərəcək”. V.Rəhimzadə qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev fevralın 28-də imzaladığı Fərmanı ilə qeyd etdiyi yaxın gələcəyi daha da yaxınlaşdırdı. Vətəndaşlara bəxş olunan bu sevinc, eyni zamanda, bundan öncəki qərarlar sözün əsl mənasında inqilabi qərarlardır. Azərbaycan digər sahələr kimi, sosial sahədə də təkmil təcrübəsini, liderliyini bir daha dünyaya nümayiş etdirdi.

## <u>Mariya Zaxarova:</u> “Qanlı Qarabağ münaqişəsi neçə-neçə günahsız insana ölüm və iztirablar gətirib”



Dəhşətli, qanlı Qarabağ münaqişəsi neçə-neçə günahsız insanın - həm azərbaycanlıların, həm də ermənilərin həyatı və iztirabları bahasına başa gəlib. Rusiya həmişə belə hesab edib və yenə belə hesab edir ki, bu, böyük faciədir. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu sözləri Moskvada keçirdiyi brifinq zamanı erməni jurnalistin Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar keçirilmiş ümumxalq yürüşündə Rusiya nümayəndə heyətinin iştirakı barədə sualına cavab olaraq söyləyib. M. Zaxarova qeyd edib ki, Rusiya bu münaqişənin dinc yolla nizamlanması variantlarının axtarışında tərəflərə kömək göstərmək üçün qətiyyətlə çalışır. O deyib: “Biz bu məsələyə bundan sonra da regionda Rusiyanın öz siyasəti və bu istiqamətdə fəaliyyət xəttinin formalaşmasına yanaşmalar kontekstində birinci dərəcəli əhəmiyyət verəcəyik”.

RF XİN-in rəsmi nümayəndəsi erməni jurnalistinə məsləhət görüb ki, Rusiya nümayəndə heyətinin həmin yürüşdə iştirakı barədə sualı nümayəndə heyəti üzvlərinin özlərinə ünvanlasın. O deyib: “Xarici İşlər Nazirliyi bu tədbirin həmtəsisçisi və həmtəşkilatçısı deyil”.

## “Sosial xərclərlə bağlı büdcəyə yenidən baxıla bilər”



“2019-cu il Azərbaycan üçün uğurlu başlayıb. Həm neftin dünya bazarında bahalaşması, həm qeyri-neft sektorunda sənaye payının sürətlə inkişaf etməsi, həm də Prezident İlham Əliyevin son iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirədə də söylədiyi kimi təkcə yanvar ayında 105 milyondan artıq vergi və gömrük rüsumlarının yığılması bu ilin ortalarında büdcəyə yenidən baxılmasına imkan verəcək”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü, deputat Musa Quliyev deyib. O bildirib ki, büdcəyə baxılan zaman vətəndaşların sosial müdafiəsinin artırılmasına istiqamətlənə xərclərə yenidən baxıla bilər. Dövlət büdcəsinin sosial yönümlü olduğunu deyən M.Quliyev deyib ki, büdcədə ilk yeri hərbi xərclər tutur: “Bu belə də olmalıdır. Çünki, Azərbaycanın 20 faiz torpaqları işğal altındadır. Bizim həm güclü müdafiə, həm də hücum silahlarımız olmalıdır. Bizim düşmənimizin arxasında dayanan bəzi qüvvələr onlara bəzən silahları pay və ya müəyyən kreditlərlə verir. Lakin bizim belə imkanlarımız olmadığı üçün ya silah almalı, ya da özümüz istehsal etməliyik”.

Deputatın sözlərinə görə, büdcədə hərbi məsələlər üçün nəzərdə tutulan xərclərin çoxu da məhz hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşması üçün nəzərdə tutulub: “Hərbi xərclərimizin çoxu hərbi qulluqçularımızın yaxşı şəraitdə xidmət etməsinə imkan yaratmaq üçündür. Onların geyimləri, yeməkləri, qalacaqları yerlər, istirahətləri dövlət tərəfindən təmin olunur. Hərbçilərin ailələrinə müavinətlər verilir, müxtəlif təminatları nəzərdə tutulur. Bundan əlavə, hərbi qulluqçular dövlət tərəfindən mənzillə təmin olunur, kirayə xərcləri ödənilir. Edilən xərclərin hamısı ölkəmizin müdafiə qüdrətinin daha da artmasına xidmət edən xərclərdir”.

Hərbi xərclərə ayrılan vəsaitlərin heç birinin sosial xərclərlə əlaqəsi olmadığını deyən M. Quliyev əlavə edib ki, vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsinə yönələn xərclərin bundan sonra da artırılması gündəmdə olan məsələlərdəndir.

***Nailə Məhərrəmova***

## “Bu Sərəncam son illərin ən böyük artımıdır”



“Azərbaycan Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması haqqında Sərəncamı son illərin ən böyük artımı kimi qiymətləndirilir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib. Sərəncamın təxminən 500 min nəfərə şamil ediləcəyini deyən komitə sədri söyləyib ki, artımın faiz dərəcəsinin yüksək olması bu kateqoriyadan olan insanlara diqqətin göstəricidir: “Vahid aylıq müavinətlərin artırılması həmin insanların sosial təminatının yaxşılaşdırılması ilə yanaşı ailə büdcəsinin də artmasını təmin edəcək. Əgər ailədə 5 nəfər varsa, son qiymət artımından sonra onlar ümumilikdə 300 manat aylıq müavinət alacaq”.

H.Rəcəbli söyləyib ki, əgər ailədə pensiya alan, işləyən də varsa onların aylıq büdcəsi daha çox olacaq ki, bu da nəticə etibarı ilə həmin ailənin dolanışığına müsbət təsir göstərəcək. Komitə sədri qeyd edib ki, dövlət büdcəsinə daxilolmaların artması, sosial müdafiə xərclərinin daha da artırılmasına xidmət edir: “Büdcə vəsaitlərinin insanların rifah halının yüksəlməsinə sərf olunması bir daha sübut edir ki, Azərbaycanın büdcəsi sosial yönümlüdür”.

***Nailə Məhərrəmova***

# Naxçıvanın "Duzdağ" mağarasını nadir reabilitasiya mərkəzi kimi dünyaya tanıdan alim

***Azərbaycanın müstəqilliyinin bərpasından ötən son 15 il tarixə bütün sahələrdə böyük inkişaf və tərəqqi dövrü kimi daxil olub. Həmin illər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yalnız siyasi və iqtisadi sahədə deyil, eyni zamanda, sosial tərəqqi, əhalinin sağlamlığının yüksəlməsi və səhiyyəmizin sürətli inkişafı ilə də diqqəti cəlb edir.***

Təsadüfi deyil ki, həmin dövrdə respublikamızda minlərlə xəstəxana inşa edilib, köhnə səhiyyə müəssisələri əsaslı şəkildə təmir edilərək ən müasir tibbi avadanlıqla təchiz olunub. Bununla yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu sahəyə göstərdiyi böyük diqqət, Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən çoxsaylı layihələr Azərbaycan səhiyyəsini dünyanın aparıcı ölkələrinin bu sahəsi ilə bərabər səviyyəyə qaldırıb. Eyni zamanda, ölkə ərazisində olan nadir təbii müalicə müəssisələri yüksək standartlar səviyyəsində bərpa olunaraq, həm əhalinin, həm də Azərbaycana üz tutan əcnəbilərin istifadəsinə verilib. Belə müəssisələrdən biri də öz unikal tibbi-müalicəvi və reabilitasiya əhəmiyyəti ilə seçilən Naxçıvan "Duzdağ" fizioterapevtik mərkəzidir.





Yaşı min illərlə olan "Duzdağ" mağarası Azərbaycanın ayrılmaz hissəsi, qədim tarixi və təbii gözəlliyi ilə seçilən Naxçıvan diyarının rəmzlərindən biridir. Doxsan milyon ton təbii sərvətə malik olan bu dağ yalnız şəffaf və təmiz duzu ilə deyil, həmçinin müalicəvi xüsusiyyətləri ilə məşhurdur. Belə müalicə müasir tibdə speleoterapiya kimi tanınır. Azərbaycanda speleoterapiyanın müasir elm və tibbin yeni bir sahəsi kimi formalaşması isə tibb elmləri doktoru, professor Lalə Allahverdiyevanın adı ilə bağlıdır. Məhz Lalə Allahverdiyeva ilk dəfə Azərbaycanda speleoterapiyanın elmi istiqamətini əsaslandırıb, onun yüksək kliniki, funksional və laborator səmərəliliyini sübut edib. Onun rəhbərliyi ilə aparılmış elmi tədqiqat işləri həm Azərbaycanda, həm də dünyada speleoterapiyanı keyfiyyətcə yeni səviyyəyə yüksəldib. Onun tərəfindən speleoterapiyanın səmərəliliyinə dair çoxlu sayda elmi məqalələr dərc olunub.

L.Allahverdiyeva Azərbaycan speleoterapiyasının və Naxçıvan "Duzdağ" mağarasının dünya miqyasında tanınması məqsədilə dəfələrlə beynəlxalq forumlarda, konqreslərdə, simpoziumlarda məruzələrlə çıxış edib. Belə ki, 2015-ci ildə Sinqapurda keçirilən XXI Ümumdünya Tibdə Reabilitasiya və İmmunoreabilitasiya Konqresi və VIII Ümumdünya Astma, Allergiya və XOAX üzrə Forumda L.Allahverdiyeva "Naxçıvanın Duzdağ mağarasında bronxial astmanın qeyri medikamentoz müalicəsi" adlı məruzə ilə çıxış edərək birinci yeri tutub və WIPO-nun (World Immunopotology Organization) prezidenti tərəfindən diploma təltif olunub.

2017-ci ilin aprelində ABŞ-ın Nyu-York şəhərində keçirilən Ümumdünya Tibdə Reabilitasiya və İmmunoreabilitasiya Konqresi və X Ümumdünya İmmunopatologiya təşkilatı tərəfindən Allergiya, Astma, XOAX üzrə Beynəlxalq Forum keçirilib. Tədbirdə 50-dən çox ölkədən (ABŞ, Avropa, Asiya, Afrika) nümayəndələr iştirak ediblər. Bu mötəbər tədbirdə də respublikamızı ATU-nun "Allerqologiya və İmmunologiya" kafedrasının müdiri professor L.Allahverdiyeva təmsil edib. Bu forumda o, iki məruzə ilə çıxış edib - "Atopik bronxial astmalı uşaq və yeniyetmələrdə Naxçıvan "Duzdağ" mağarasının səmərəliliyi" və "Allergik rinit və bronxial astma olan uşaqlarda sublinqval allergenspesifik immunoterapiya". O, iştirakçıları Naxçıvanda yerləşən duz mağaralarının müalicəvi, reabilitasiya imkanları və speleoterapiya üstünlükləri ilə daha yaxından tanış etmək məqsədilə forumda plakatlar, broşürlər, məqalələrdən ibarət ekspozisiya sərgiləyib və videoçarx nümayiş etdirib. Həmyerlimizin təqdimatı ABŞ, İspaniya, Rumıniya, Bolqarıstan, Filippin və digər ölkələrin alimlərində geniş maraq oyadıb və onlar bilavasitə bu təbii mənbə ilə tanış olmaq istədiklərini bildiriblər. Nəticədə L.Allahverdiyevanın Naxçıvan" Duzdağ" mağarası haqqında məruzəsi birinci yerə layiq görülüb və WIPO-nun prezidenti tərəfindən diplomla mükafatlandırılıb.

2019-cu ilin fevralında ABŞ-ın San-Fransisko şəhərində Amerikanın Astma, Allergiya və İmmunologiya Akademiyası tərəfindən keçirilən konqresdə L.Allahverdiyevanın "Naxçıvan "Duzdağ" mağaralarının pediatrik astmanın müalicəsində rolu" adlı məruzəsi təqdim olunub və bu akademiyanın "Allergy and Clinical Immunology" jurnalında çap edilib.

Speleoterapiya metodu adlandırılan bu üsul təbii, müasir texnologiyalı, yüksək effektli, qeyri-medikamentoz müalicə və profilaktika üsullarına aiddir. Bu metod vasitəsilə həm allergik, həm də qeyri-allergik bronx-ağciyər xəstəlikləri, pollinoz, ekzema, atopik dermatit, neyrodermit, stress və sinir gərginliyi kimi digər xəstəliklər öz müalicəsini tapıb. Bu metodun əsas xüsusiyyətlərindən biri duz mağaralarının təbii mikroiqlimidir.

Mövcud məlumatlara görə, 6 min il bundan əvvəl, Nuh-Nəbi (Nuh peyğəmbər) dövründən Naxçıvanın "Duzdağ" mağarasında duz çıxarılır. Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə qədər "duz yolu" uzanırdı. Bu yerlər haqqında bir çox kitab və elmi əsərlər yazılsa da, indiyə qədər bu torpağın sirri tamamilə açılmayıb. "Duzdağ" mağarası və duz şaxtası adlı artefakt bəşəriyyətin nailiyyətlərindən biri sayılır. Qeyd etdiyimiz kimi, bu mağara həm də mühüm tibbi-müalicəvi əhəmiyyətə malikdir.

Məşhur Naxçıvan "Duzdağ" sanatoriyası vaxtilə keçmiş SSRİ ərazisində ən unikal yerlərdən biri hesab olunurdu. Hazırda bu reabilitasiya mərkəzi özünün intibah dövrünü yaşayır. Onun populyarlığı o qədər yüksəkdir ki, respublikamızın sakinləri ilə yanaşı, bütün MDB ölkələri, Türkiyə və İran vətəndaşları da bura müalicə üçün gəlirlər. Avstriya, Almaniya, İtaliya, Polşa, Rumıniya, Macarıstan, Belarus, Ukrayna, Qırğızıstan və Rusiyada bu cür mağaraların olmasına baxmayaraq, Avropa ölkələrindən də bura gələn xəstələrin sayı ildən-ilə artır. Bunun əsas səbəbi Naxçıvanın "Duzdağ" mağaralarında olan iqlimin unikal kimyəvi tərkibidir. Belə ki, "Duzdağın" mikroiqliminin tərkibində daha çox miqdarda natrium və xlor ionları mövcuddur. Buradakı havanın tərkibində kiçik dispersli Na və Cl ionlarının ölçüsü 1 millimikrondan 5 millimikrona qədərdir (82,6 faiz). Bu tərkib bronx-ağciyər xəstəliklərinin müalicəsində olduqca səmərəlidir. Bu cür duzlu aerozol yeraltı müalicə ocağının havasını təmizləyir, burada mikrobsuz və steril bir şərait yaradır. Başqa ölkələrdə olan mağaralarda isə Ca ionları üstünlük təşkil edir, bu isə müalicənin effektivliyini aşağı salır. Məsələn, Solotvinodakı (Ukrayna) oxşar sanatoriya ilə müqayisədə buradakı havada 6 dəfə çox Na və Cl ionları var. Bütün bu amillər, yəni, optimal iqlim şəraiti və müalicənin yüksək səmərəliliyi Naxçıvan "Duzdağ" mağarasını dünyada analoqu olmayan bir müalicə mərkəzinə çevirib.

Hərtərəfli elmi tədqiqat əsasında hazırlanmış yeraltı xəstəxananın quruluşu sınaqdan keçirilib və dünya miqyasında tanınır. Yeraltı xəstəxananın uzun müddətli istismarı, onun yaradılması zamanı istifadə olunan konstruksiya, mağaradakı mikroiqlimin xüsusiyyətləri bu tibb ocağında optimal şəraitin yaradıldığını göstərir.



Naxçıvan "Duzdağ" mağarasının digər bu tip mağaralardan üstünlüyünün bir göstəricisi də onun üfüqi vəziyyətdə yerləşməsi və havalandırılmasıdır, bu isə xəstələrin mövcud şəraitə daha tez və asan uyğunlaşmasına səbəb olur.

Mağaradakı mikroiqlimin sabit parametrlərə malik olması, havanın əlverişli qaz, aerozol, ion tərkibi, bakterial çirklənmənin aşağı olması və allergenlərin tamamilə olmaması mərkəzin əsas göstəricilərindəndir.

Bu gün Naxçıvan "Duzdag" fizioterapiya mərkəzi speleoterapiya sahəsində aparıcı müalicə müəssisəsidir. Mərkəz dəniz səviyyəsindən 1173 metr yüksəklikdə yerləşir. Xəstəxana yerüstü və yeraltı hissələrdən ibarətdir. Speleoxəstəxananın yeraltı hissəsi 110 metr dərinlikdə yerləşir, 5 qalereya və 47 palatadan ibarətdir. Yeraltı fizioterapiya şöbəsində xəstələr daimi tibbi nəzarət altındadır. "Duzdağ" müalicə mərkəzi öz potensial imkanları ilə Azərbaycan Respublikası səhiyyəsində unikal müalicə və reabilitasiya mərkəzi sayılır.

L.Allahverdiyeva nəinki Azərbaycanda, MDB ölkələrində, hətta bu hüdudlardan kənarda, Amerika Birləşmiş Ştatlarında, Kanadada, Avropada və o cümlədən dünyanın bir çox ölkələrində tanınmış alim və həkim - allerqoloqdur. Belə ki, 2006-2007-ci illərdə elmi nailiyyətlərinə görə onun adı Amerika Birləşmiş Ştatlarının "Tibdə və Səhiyyədə kim kimdir" ("Who's Who in Medicine and Helthcare") məşhur ensiklopedik toplusuna daxil edilib. 2011-ci ildə isə o, tibb sahəsində böyük nailiyyətlərinə görə İngiltərənin Kembric Universitetinin "The Cambridge Certificate for Outstanding Medical Achievement" sertifikatı ilə təltif olunub.

Tanınmış alim xaricdə (ABŞ, Fransa, İngiltərə, İspaniya, Almaniya, İtaliya, Avstriya, Hollandiya, İsveçrə, Danimarka, Sinqapur, BƏƏ, Türkiyə, Misir, Rusiya, Gürcüstan, Özbəkistan və s. ölkələrdə) keçirilən beynəlxalq konfranslarda, simpoziumlarda və konqreslərdə çıxış etdiyi məruzələrdə və sədrlik etdiyi plenar sessiyalarda dəfələrlə Azərbaycanı yüksək səviyyədə təmsil edib.

Dünyada ilk dəfə olaraq, Naxçıvan "Duzdağ" mağarasında müalicə olunan xəstələrin nəticələrini obyektiv qiymətləndirmək və düzgün müalicə aparmaq məqsədilə onun tərəfindən dünyanın məşhur tədqiqat mərkəzlərində istifadə olunan "Nioxmino" aparatı İsveçdən ölkəmizə gətirilib. Bu cihaz vasitəsilə bronxial astmalı xəstələrdə verilən nəfəsdə azot-2 oksidin təyini aparılıb.

Onun rəhbərliyi altında mütəxəssislər qrupu tərəfindən xəstəliyin növünə və xəstələrin yaşına görə speleoterapiyanın yeni müalicə sxemi hazırlanıb. Bu yeni hazırlanmış sxemlə müalicə olunan xəstələrin sağalması, bu üsulun daha yüksək səmərəliliyini sübut edib.

L.Allahverdiyeva uzun illər apardığı tədqiqatın mühüm əhəmiyyətini belə qiymətləndirib: "Naxçıvan "Duzdağ" mağarasında müxtəlif ağciyər-bronx patologiyası olan xəstələrdə aparılan müalicə, speleoterapiyanın yüksək səmərəliyini bir daha təsdiq edib. Belə ki, bronxial astmalı xəstələrdə aparılan müalicədən sonra onların 70-80 faizində 6 aydan 2 ilə qədər yaxşılaşma qeyd olunur. Bu gün fizioterapevtik mərkəz olan "Duzdağ" mağarası Naxçıvanın vizit kartına çevrilib. Hazırda bu mərkəz bir sıra xəstəliklərin profilaktika, müalicə və reabilitasiyasında təbii effektiv qeyri-medikamentoz müalicə üsullarından biridir. Lakin bilmək lazımdır ki, speleoterapiya medikamentoz müalicəni nə inkar, nə də əvəz etmir. İlk növbədə, xəstələrə, xəstəliyin ağırlığından asılı olaraq, medikamentoz müalicə təyin edilməlidir. Kəskinləşmə aradan qalxdıqdan sonra isə reabilitasiya mərhələsində speleoterapiya kursu təyin olunmalıdır. Speleoterapiyanı bizim ölkəmizdə bundan sonra daha da inkişaf etdirmək lazımdır. Əminik ki, Naxçıvanda aparılan speleoterapiya sağlamlığın industriyasına çevriləcək".

# Gültəkin Hacıbəyli dələduz çıxdı

*"Milli Şura"nın "primadonnası" keçmiş qayınanası Nəhayət Məmmədovanı aldatmaqla, ona 50 min dollar atıb*

***Müxalifət daxilində bəzi partiya funksionerləri müxtəlif çirkin vasitə və üsullardan istifadə etməklə, qrant əldə etməyə və pul qazanmağa çalışırlar. Qarşılığında isə, ölkəmizdəki əmin-amanlığa, siyasi sabitliyə xələl gətirməyə cəhd göstərirlər. Hətta pul, onlar üçün o qədər şirin olur ki, ümummilli faciələrdə belə qarşıdurma yaratmağa, pozuculuq aktları törətməkdən çəkinmirlər.***

Buna misal kimi, AXCP sədri Əli Kərimlinin və Müsavat başqanı Arif Hacılının 20 Yanvar faciəsisi və Xocalı soyqırımı günlərində təxribatlar törətməyə, polislə qarşıdurmalar yaratmağa cəhdlər etmələrini göstərmək olar. Onların ətrafında olanlar da, liderlərindən az bəd əməl sahibi deyillər. Elə misal olaraq, "Milli Şura" deyilən qondarma qurumun işverənlərindən olan Gültəkin Hacıbəylinin anormal mövqe sərgiləməsini göstərmək olar. Özünü məlum qüvvələrin gözünə soxmağa çalışan bu şəxs, 10 il deputat olduğu zaman sərgilədiyi mövqeyin əksini nümayiş etdirməkdədir.

G.Hacıbəyli xarici ölkələrdə fəaliyyət göstərən ermənipərəst anti-Azərbaycan meyilli qüvvələrə nökərçilik etməklə, qrant əldə etməyə və malınınmülkünün siyahısını bir qədər də artırmağa çalışır.

## Dəyəri milyon manatlarla ölçülən əmlaka necə sahib olub?

"Milli Şura"nın rüsvayçı mitinqlərinin fəal təbliğatçısı G.Hacıbəyli deputat olduğu zaman, özünə qeyri-qanuni yollarla daşınan və daşınmaz əmlak qazanıb. Bu barədə, araşdırma aparılan zaman geniş siyahı əldə olunub. Həmin siyahıda yer alan əmlakların siyahısı:

- Goranboy rayonu, Xan Qərvənd kəndində 92 sotluq torpaq sahəsi və onun üzərində yerləşən 400 kv. metr sahəsi olan nəhəng villa.

-Abşeron rayonu , Xırdalan şəhərində 60 sot torpaq sahəsi.



-Goradil kəndində 30 sot torpaq sahəsi.

-Abşeron rayonu, Mehdiabad qəsəbəsində hər biri 4 sot olmaqla, 3 yerdə torpaq sahəsi.

-Abşeron rayonu, Mehdiabad qəsəbəsində 6 sot torpaq sahəsi.

-Şamaxı rayonu, Qalebuğurd kəndində 12 sot torpaq sahəsi.

-Səbail rayonu, Şeyx Şamil küçəsində ofis.

-Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, ev 251 a ünvanında 178,18 kv. metr sahəsi olan mənzil.

- Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, ev 251 A ünvanında 179,14 kv metr sahəsi olan digər mənzil.

- Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti, ev 12/26 ünvanında 63,3 kv metr sahəsi olan mənzil.

-Bakı şəhəri, Səbail rayonu, Mehdi Hüseyn küçəsi 61, ev 2 ünvanında mənzil.

-Bakı şəhəri , Nəsimi rayonu , Səməd Vurğun küçəsi, ev 92 A ünvanında mənzil.

-Goranboy rayonu, Nadirkənd kəndində 5 hektar, torpaq sahəsi

-Goranboy rayonu, Borsunlu kəndində 6,25 hektar, torpaq sahəsi

-Goranboy rayonu, Aşağı Ağcakənd kəndində 1,76 hektar, torpaq sahəsi

-Goranboy şəhəri 58-ci məhəllədə hər biri 8 sot olmaqla, 2 torpaq sahəsi.

Bu, azmış kimi, G.Hacıbəyli ərdə olduğu zaman ailə dəyərlərinə də xəyanət etmək yolunu tutub. Ailə başçısının, xüsusilə də, keçmiş qayınanası Nəhayət Məmmədovanın sadəlövhlüyündən sui-istifadə etməklə, ona 50 min dollar atıb. Belə ki, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən ona hədiyyə edilən evi təmir etmək üçün N.Məmmədovadan 50 min dollar borc alıb. Söhbət Səməd Vurğun küçəsi 92 a ünvanında yerləşən 12 saylı mənzildən gedir. Sonradan G.Hacıbəyli borc aldığı pulu geri qaytarmaq istəməyib. Məcburiyyət qarşısında qalan N.Məmmədova məhkəməyə müraciət edib. Məhkəmə G.Hacıbəyliyə məxsus LEXUS LX 570 10 VU 003 və TAYOTA AVALON 10 KV 003 avtomobillərinə vəsadət əsasında həbs qoyulub.

## Gültəkin Hacıbəyli AŞ PA-da da özəl maraqlarından çıxış edib

Qeyri-qanuni yollarla əmlak sahibi olan G.Hacıbəyli Azərbaycanın AŞ PA-da nümayəndə heyətinin üzvü olarkən də, işi-peşəsi nümayəndə heyətinin üzvləri arasında konflikt yaratmaq olub. Bu barədə, nümayəndə heyətinin rəhbəri Səməd Seyidov real faktlarla çıxış edib: "Mən uzun illər ərzində Gültəkin Hacıbəyli ilə birgə işləmişəm və onun Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin bütün üzvlərini sarsıdan bir hərəkətinin canlı şahidiyəm. Bizi sarsıdan bu hərəkət isə G.Hacıbəylinin komandamızın digər üzvü, professor Naira Şahtaxtinskaya ilə ilk münaqişəsi idi. Bu, mənasız və əsassız bir münaqişə idi, lakin həmin konflikt nümayəndə heyətimizin bütün işini ləngitməyə və axsatmağa başladı. Nəticəsi də, o oldu ki, Naira Şahtaxtinskaya bizim komandanı tərk etdi. Lakin bu da hələ hamısı deyildi. Daha sonra Hacıbəyli ilə Asim Mollazadə arasında yeni münaqişə başladı. Hacıbəyli Mollazadənin ünvanına heç bir əsası olmayan ittihamlar səsləndirirdi. Bunun da nəticəsi, o oldu ki, Asim Mollazadə də komandanı tərk edib Avropa Parlamentində işləməyə getdi. Beləliklə, biz AŞ PA-dakı nümayəndə heyətinin dəyərli bir üzvü kimi, A.Mollazadəni də itirdik. Bütün bunlar ayıb işlər idi! Lakin məsələ bununla da yekunlaşmadı. Münaqişənin üçüncü seriyası başladı. Gültəkin Hacıbəyli bu dəfə də Aynur Camalqızı ilə tutaşdı və Aynur Camalqızı da nümayəndə heyətini tərk etməyə məcbur oldu. Hacıbəyli sonra daha bir münaqişə yaratdı. G.Hacıbəyli ilə Qənirə Paşayeva arasında kəskin və uzun bir konflikt oldu".

**İ.ƏLİYEV**

# DSX: "On yeddi kiloqramdan çox narkotik vasitənin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb"

***Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində keçirilmiş tədbirlər nəticəsində 17 kiloqram 285 qram narkotik vasitənin və 3000 ədəd psixotrop preparatlarının dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə keçirilməsinin qarşısı alınıb.***

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, fevralın 26-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Bala Bəhmənli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən 2 nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib. Sərhəd naryadının "dayan" əmrinə tabe olmayan sərhəd pozucularına qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılıb, lakin sərhəd pozucuları əllərindəki əşyaları əraziyə ataraq geriyə qaçıblar. Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib, 2 ədəd sarı və ağ rəngdə torbalarda 4 kiloqram 75 qram heroin və 4 kiloqram 290 qram marixuana aşkarlanaraq götürülüb.

Fevralın 26-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad rayonunun Dələli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində sərhəd naryadı tərəfindən əraziyə baxış keçirilərkən 2



ədəd sahibsiz halda bağlama aşkarlanıb. Bağlamalara baxış zamanı 7 kiloqram 900 qram tiryək, 1 kiloqram 20 qram heroin, 3000 həb "metadon-40" psixotrop preparatlar və 2 qutu tütün məmulatı aşkarlanıb. Qeyd olunan faktlar üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.



**İLHAM**

# Niyaməddin Orduxanlı nə istəyir?

***Son vaxtlar sosial şəbəkələrdə ağına-bozuna və fərqinə varmadan fikir söyləyən, ideya və təkliflər irəli sürən, görülən işləri, həyata keçirilən islahatlara kölgə salmaq istəyənlərin sayı çoxalıb. Düzdür, burada qeyri-adi nəsə axtarmaq düzgün olmaz, azad- demokratik cəmiyyətdə yaşayırıq və hər kəs azad şəkildə fikrini ifadə etmək hüququna malikdir.***

Amma Ş.Montyeskeyə görə, sözünün qədrini bilməyən zəif düşüncəli adam adətən, çox danışır. Haqlıdır, həqiqətən də, sosial şəbəkə "ulduz"larının əksəriyyətinin sözə dəyərləri öz ağıllarına verdikləri kimidir. Həm də, araşdıranda, məlum olur ki, bu, dil qəhrəmanları özlərinin deyil, başqalarının danışan dili və deyən sözləridir. Bəzən deyilir ki, sərsəm ifadələr səsləndirən şəxslərə baş qoşmağa dəyməz. ASDP sədri Araz Əlizadə demişkən, nə çox dəlixanada Napaleon. Amma həyasızlıq sərhədi keçəndə, susmaq da mümkün deyil. Elə götürək, özünü BAXCP adlı təşkilatın müavini kimi təqdim etməyə çalışan Niyaməddin Orduxanlının son günlər Naxçıvan Muxtar Respublikası ilə bağlı cəfəng fikirlər, boş və mənasız mövqe sərgiləməsi... Dolaşıq fikirlərdən açıqca görünür ki, blokada şəraitində olan, ancaq durmadan böyük inkişaf və tərəqqi yolu keçən Naxçıvana qarşı bilərəkdən kampaniya aparılır, özü də kimlərinsə təqdim etdikləri tezislər əsasında. Misal olaraq, Niyaməddin əkə, sosial şəbəkədə lideri Qüdrət Həsənquliyevin ağzından qaçırdığı ifadələrini ört-basdır etməyə çalışarkən, nümayiş etdirməyə çalışır ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi niyə xaricdə oturub, Azərbaycanın milli maraqlarına xor baxan "söyüş qrupu"na cavab vermir. Bu, bivec məxluqun düşüncəsinə görə, Naxçıvan rəhbərliyi işinigücünü atıb, açıq-aşkar gədəlik edən mənəviyyatsız bir ovuc ünsürə cavab verməlidir. Xaricdəki "söyüş qrupu"nun fəallarından olan Orduxan Teymurxanın qohuməqrəbasından olduğu deyilən Niyaməddin əkəyə xatırlatmaq lazımdır ki, Azərbaycanda bütün cəmiyyət, o cümlədən, Naxçıvan ictimaiyyəti istənilən qara qüvvələrə, o cümlədən, müxtəlif məkrli dairələrin maddi və mənəvi dəstəyi ilə ölkəmizə qarşı əxlaqsız fəaliyyət yolu tutanlara qarşı sərt mövqe ortaya qoyub. Bunu sosial şəbəkələrdə Naxçıvandan olan insanların paylaşdıqları statuslarla da müəyyənləşdirmək olar. Digər tərəfdən, təqdim olunan tezis əsasında çıxış edən Niyaməddin əkə iddia edir ki, Naxçıvanda iş problemi var, əhalinin yaşayışında narahatlıq doğuran məqamlar nəzəri cəlb edir. Bu yerdə dünyaca məşhur hindistanlı siyasi xadim Mahatma Qandinin fikri yada düşür: "Azadlıq ifrat dərəcəsinə çatdıqda, özbaşınalığa çevrilir". Təəssüf ki, ölkəmizdəki azad və demokratik mühitdən sui-istifadə edənlərdən olan Niyaməddin əkəyə xatırlatmaq yerinə düşərdi ki, bu gün Naxçıvan öz inkişafına görə, Azərbaycanda ən öndə olan bölgələrimizdəndir. İctimai rəydə iqtisadi inkişaf "Naxçıvanın möcüzəsi" kimi qiymətləndirilir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbov "Naxçıvan möcüzəsi"ni belə xarakterizə edir: "Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda, istənilən möcüzəni yaratmaq olar".

Azərbaycan Prezidenti İlham Əliyev isə Naxçıvanda geniş vüsət alan quruculuq-abadlıq, sosial-iqtisadi inkişaf barədə demişdir: "...Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri - quruculuq-abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".

Niyaməddin əkə kimilər təbii ki, sifariş qulu olduqlarından, Naxçıvan həyatında baş verən uğurları görmək istəmirlər. Həm də çalışırlar ki, Azərbaycan Prezidenti İlham Əliyevin göstəriş və tapşırıqlarına, eləcə də, qəbul etdiyi Dövlət Proqramlarına əsasən, Naxçıvan rəhbərliyinin həyata keçirdiyi nailiyyətlərə kölgə salsınlar. Ancaq cəhdləri uğursuzluqdan başqa bir şey deyil. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da sabit və sakit həyat insanların firəvan həyatı ilə davam etdirilir.

# İran Ermənistan üçün oynadığı “nəfəs borusu” rolundan imtina edir

## *Nikol Paşinyanın İrana gözlənilən səfəri nəticəsiz qalacaq*

***Son zamanlar Ermənistanın daxili və xarici siyasi uğursuzluqlara məruz qalması, daha dəqiq desək, bu ölkənin istər qonşuları, istərsə də digər xarici ölkələrlə münasibətlərində heç bir irəliləyiş əldə edə bilməməsi, artıq bir çox danılmaz faktlara əsaslanır. Məhz bu məsələdə, Ermənistanın İran İslam Respublikası ilə münasibətlərində də ciddi soyuqluqlar müşahidə edilməkdədir. Xüsusilə, qonşu İranın Azərbaycanla münasibətlərinin uğurla inkişaf etdirilməsi Ermənistanı ciddi şəkildə müxtəlif siyasi-iqtisadi proseslərdən kənarda qoymağa başlayıb. Halbuki vaxtilə Ermənistanın “nəfəs borusu” kimi təqdim edilən İİR, artıq bu rolu oynamaqdan imtina etdiyini göstərməkdədir. Əbəs deyil ki, İİR-ın rəsmi dövlət informasiya agentliyi olan İRNA-da “İran və Azərbaycan Respublikası yaxın qonşular və regional müttəfiqlər” adlı müsbət məqalə dərc olunub. Bu məqalədə bir sıra məqamlara toxunulub, o cümlədən, yaxın qonşuluq siyasətindən tutmuş, regional müttəfiqliyə qədər inkişaf edən münasibətlər əsas prizma olaraq götürülüb.***



### General-leytenant Məhəmməd Baqeri: “İran Azərbaycanı özü üçün qonşu, dost və qardaş ölkə hesab edir”

Daha bir maraqlı nüans isə, İİR-ın Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-leytenant Məhəmməd Baqerinin ötən ay Azərbaycana etdiyi səfəri çərçivəsində mühüm məqamlara işarə edərək, ölkələrimiz arasındakı yüksək münasibətlərə toxunmasıdır. “Son illər Azərbaycan və İran prezidentlərinin siyasi iradəsi nəticəsində, ölkələrimiz arasında iqtisadi, siyasi və digər sahələrdə mühüm irəliləyişlər əldə olunub. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, eləcə də, İran İslam Respublikası qurulandan bəri İrandan Azərbaycana ilk dəfə hərbi və müdafiə sahəsində yüksək səviyyəli nümayəndə heyətinin səfəri, müvafiq sahələrdə iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edir” deyə bəyan etmiş iranlı yüksək rütbəli zabit, əlavə etmişdi ki, İran Azərbaycanı özü üçün qonşu, dost və qardaş ölkə hesab edir: “Lakin biz münasibətlərimizin bu səviyyədə olması ilə kifayətlənə bilmərik. İki ölkə arasında müştərək layihələr, o cümlədən, Şimal-Cənub Nəqliyyat Dəhlizi, Rəşt-Astara dəmir yolu xəttinin çəkilişi, eləcə də, digər infrastruktur və yol-nəqliyyat layihələri icra olunmaqdadır. Bu layihələr icra olunduqdan sonra iki ölkə arasında iqtisadiyyat və ticarət sahələrində əlaqələr daha da genişlənəcək və inkişaf edəcək. İran Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib və Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə həll olunmasını arzulayır”.

Məhəmməd Baqeri, eyni zamanda, qeyd etmişdi ki, İran, eləcə də, Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılması, məcburi köçkünlərin və qaçqınların problemlərinin həll olunması, onların doğma yurd-yuvalarına qayıtması məsələsinin həll olunmasını istəyir. Beləliklə, hərbi-iqtisadi sahələrlə yanaşı, bütün sahələrdə əlaqələrin yüksək xətlə inkişaf edəcəyinə əmin olduğunu vurğulayan Məhəmməd Baqerinin, xüsusilə, İranın Azərbaycanın ərazi bütövlüyünü tanıması, Dağlıq Qarabağın işğal olunması faktına toxunması, artıq ölkələrimiz arasında yeni və daha güclü mərhələnin başlanğıcının növbəti anonslarıdır.

### İran Ermənistanın baş naziri Nikol Paşinyanın rəsmi səfərindən heç də məmnun görünmür

Belə olan halda, İranın Ermənistanla münasibətlərə yenidən baxa bilməsi mümkünlüyü daha da artmağa başlayıb. Bu isə, Ermənistana yaxşı heç nə vəd etmir.

Yeri gəlmişkən, o da bəllidir ki, fevralın 27-də erməni baş nazir Nikol Paşinyanın Ermənistana rəsmi səfəri gözlənilir, lakin İranda bu səfərdən məmnun qalınmayacağı artıq bəri başdan görünməkdədir. Məsələ həm də ondadır ki, İran regionda öz təhlükəsizliyinə ola biləcək zərbəni, məhz Ermənistandan ala bilər. Hətta bu barədə qonşu dövlətin əlində məlumatlar da mövcuddur. Həmin məlumatlardan biri ABŞ-ın Ermənistanda fəaliyyət göstərdiyi və regionda ən böyük hesab edilən səfirliyində İrana qarşı kəşfiyyat işlərinin aparılması məsələsidir.

Habelə, son zamanlar Ermənistanda İran vətəndaşlarına məxsus bank hesablarının dondurulması ilə bağlı olan xəbərlər də iranlı siyasətçilərin və iqtisadçıların hiddətinə səbəb olmaqdadır. Ümumiyyətlə, İran tərəfi, artıq Ermənistanın yaxın qonşuluq prinsiplərindən tamamilə kənar olduğunu anlamağa başlayıb. Əlbəttə ki, bu kimi amillərdə ermənilərin tarixlər boyu İran ərazisində törətdikləri vəhşiliklər, qırğınlar da unudulmayıb. Bütün bu detallar İranın mövcud siyasi dairələrində nəzərə alınıb və qeyd edilən faktlar Paşinyanın İrana rəsmi səfərinə köklü şəkildə kölgə salmağa başlayıb.

### İran tərəfi yaxşı bilir ki, Ermənistan onlara heç bir səmərə verə bilməz

Bu arada, İİR tərəfi yaxşı bilir ki, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti onu regionda rəsmi Bakının təşəbbüsləri ilə reallaşdırılan layihələrdən kənarda qoyub. Hazırda Ermənistanın İrana heç bir səmərə verməyəcəyini sübut edən daha bir məsələ regional layihələrdə digər dövlətlərin də Ermənistana bel bağlamamaları reallığıdır. Misal üçün, “Şimal-Cənub” dəmiryolu layihəsinin gerçəkləşdirilməsi ilə bağlı son günlər mətbuatda yer alan yazılar, heç şübhəsiz, erməni tərəfini ciddi narahat etməyə başlayıb. Bunun ardınca İranın Ermənistandakı səfiri Seyid Kazem Sacadinin verdiyi bəyanat deyilənləri bir daha təsdiq edir. Belə ki, iranlı siyasətçi-diplomat Yerevan Dövlət Universitetində çıxışı zamanı iki ölkə arasında ortaq nəqliyyat layihəsinin mümkünlüyü haqda danışsa da, ölkəsinin şərtlərini də ortaya qoyub: “İran tərəfi onu Ermənistanla birləşdirən dəmir yolunun açılışına hazırdır. Ancaq bir şərtimiz var. Əgər İrəvan investor tapsa, biz dəmir yolunu işə sala bilərik. Sadəcə, bu sahəyə birgə sərmayələr qoyulmalıdır. İlk addımı siz atın, növbətini biz atarıq”.

Bəs bu fikirlərdən daha hansı nəticəyə gəlmək olar? Nəticə budur ki, iranlı səfir Ermənistanın belə mühüm və regional əhəmiyyət daşıyan layihələr üçün maliyyəsinin olmadığını yaxşı bilir. Həmçinin o da bəllidir ki, artıq Ermənistanın müxtəlif xarici ölkələrdə fəaliyyət göstərən diasporaları, əvvəlki illərdə olduğu kimi, hakimiyyətə sədəqə yığmaq, yəni marafonlar keçirmək ənənəsindən imtina edib və o cümlədən, heç bir digər ölkə hakimiyyət dəyişikliyi baş vermiş Ermənistanda layihələrdə iştirak etmək üçün maliyyə xərcləməyə razı olmaz. Çünki mövcud Paşinyan hökuməti “məxməri inqilab”dan sonra verdiyi heç bir vədlərini yerinə yetirə bilməyib. Bu baxımdan, İranın Ermənistandakı səfirinin fikirlərini rədd cavabı kimi də qiymətləndirmək olar.

### İran Azərbaycan dövlətinin apardığı siyasətə güvənir, ölkəmizin etibarlı tərəfdaş olduğunu yüksək səviyyədə qiymətləndirir, bu dəyərləndirmələr strateji əməkdaşlığa doğru sürətlə irəliləyir

Yuxarıda da qeyd etdiyimiz kimi, Ermənistandan fərqli olaraq, İran artıq var gücü ilə Azərbaycanla sıx siyasi-iqtisadi əlaqələrə malik olmaq arzusunu gizlətmir. Burada isə, söz yox ki, Azərbaycanın həyata keçirdiyi xarici siyasətin də ciddi təsiri var. Məsələn, Azərbaycan İrana kredit verən ölkələr sırasında yer alır. Ölkəmiz, Astara-Rəşt dəmiryolunun çəkilməsi üçün İrana 500 milyon dollar kredit verib. Belə əlaqələrin sayı isə, artıq müsbət nəticələrini verir - İran Azərbaycan dövlətinin apardığı siyasətə güvənir, ölkəmizin etibarlı tərəfdaş olduğunu yüksək səviyyədə qiymətləndirir və bu dəyərləndirmələr strateji əməkdaşlığa doğru sürətlə irəliləyir.

Nəticə olaraq, həm də belə bir qənaətə gələ bilərik ki, İran Ermənistanın ərazisində hansısa infrastruktur yollar tikməklə, uzunmüddətli layihələr həyata keçirməklə, yüklərin daşınmasında bu ölkənin ərazilərindən istifadə etməklə, strateji maraqlarını uduza bilər. Ancaq etibarlı və yüksək səviyyəli qonşuluq münasibətləri yalnız Azərbaycanla inkişaf etdirilə bilər. Rəsmi Tehran bütün mənalarda siyasi-iqtisadi maraqlarını və dünyaya çıxışını rəsmi Bakı vasitəsi ilə reallaşdırmaq imkanını itirmək istəməz. İrəvan isə, əlbəttə ki, itirə-itirə gedir və işğalçıların növbəti itirəcəkləri mövqe, bilavasitə Azərbaycanla münasibətlərini gücləndirən, inkişaf etdirən İran İslam Respublikasıdır.

***Rövşən NURƏDDİNOĞLU***

# Vətəndaş Əli Kərimlini danılmaz fakt qarşısında qoydu!

***Bu günlərdə maraqdoğurucu video ictimailəşib. SİA xəbər verir ki, AXCP sədri Əli Kərimli iaşə obyektlərinin birindən ətrafında cangüdənləri və bir neçə partiyadaşı ilə çıxarkən, əlində fotoşəkillər olan bir vətəndaş ona yaxınlaşaraq, oğlunun əsgər olduğunu və bundan qürur duyduğunu deyib.***

Bununla yanaşı, Əli Kərimlinin artıq sosial şəbəkələrdə “məşhur” olan oğlu Türkel Kərimlinin Londonda bahalı içki partilərindəki, kef məclislərindəki fotolarını da göstərən vətəndaş AXCP sədrindən nəyə görə mitinqlərə çıxıb, insanlara yalan danışdığını irad tutub. “Niyə insanlara yalan danışırsan? Bax, mənim oğlum əsgərdir. Bu da sənin oğlunun şəkilləri. İçki içir, kef edir. Hansı pullarla edir bunları?”, deyə soruşan vətəndaşın sualını cavablandırmayan Kərimlinin bu dəfə cangüdəni ona zor tətbiq etməyə çalışır. Lakin vətəndaş “sən mənə heç nə edə bilməzsən” deyərək, suallarını AXCP sədrinə ünvanlamaqda davam edir.



Maraqlıdır ki, özünü “siyasətçi”, “müxalifət lideri” hesab edən Əli Kərimli bu suallar və faktlar qarşısında aciz qalmaqla yanaşı, həm də vətəndaşa barmaq silkələyir, təhdid edir. Əslində isə, haqlı suallar ünvanlayan vətəndaş qarşısında rüsvay olan AXCP sədri bununla nə qədər qorxaq və ümumiyyətlə, siyasətə aid olmayan biri olduğunu sözügedən davranışı ilə nümayiş etdirir. Vətəndaş isə Əli Kərimlinin qarşısında öz Prezidentini, dövlətini sevdiyini bildirir və AXCP sədrinin xəyanətkar, yalançı olduğunu dəfələrlə vurğulayır.

# Xəyanətkarın ağı-qarası olmur

*Bəxtiyar Hacılı, görünür, yenidən "acıb"*

***Sirr deyil ki, bu gün ölkəmizin günü-gündən artan inkişafını görməyən, şəxsi maraqlarına görə milli dəyərimizi gözdən salan sapı özümüzdən olan baltalar var. Və sapı özümüzdən olan bu ünsürlər "siyasi mühacir" adı altında çörəyini yeyib-suyunu içdikləri vətənlərinə qarşı antitəbliğat kampaniyası aparmaqla erməni lobbisi tərəfindən lazımi maliyyə dəstəyi alırlar.***

Xüsusilə də, Azərbaycanın uğurlu inkişafından qıcıqlanan erməni lobbisinin maliyyələşdirdiyi bu əxlaqsız və satqınlar - Emin Milli, Orduxan Teymurxan, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev, Həbib Müntəzir, Bəxtiyar Hacılı və digərləri həyasızcasına çirkin əməllərindən əl çəkmirlər.

## Onu danışdıran isə qrantdır...

Elə son günlər, Fransada yaşayan Bəxtiyar Hacıyev adlı ünsür yenidən peyda olaraq, xarici havadarlarının əmri ilə oturub-duraraq ölkəmizə qarşı qarayaxma kampaniyası həyata keçirməyə başlayıb. Məqsəd bəllidir: daha çox qrant almaq və həyat səviyyəsinin bahalı olduğu Avropada varlıqlarını davam etdirmək. Aldıqları qrantların qarşılığında isə, onların qarşısına Azər-



baycan dövləti əleyhinə kampaniya aparmaq məqsədi qoyulur. Ancaq bu qrantlar qarşıdurma yaratmaqla, iç üzlərinin açılmasına səbəb olmaqla yanaşı, həm də həqiqətlər də üzə çıxır. Onlar özləri də yaxşı bilirlər ki, irəli sürdükləri heç bir ittihama və qarayaxma kampaniyasına normal düşüncəli Azərbaycan vətəndaşı inanmır. Lakin xarici anti-Azərbaycan qüvvələrin əlində oyuncağa çevrilən, qul psixologiyalarından yaranan erməni sevgilərini fürsət düşdükcə, açıq-aşkar nümayiş etdirməkdən belə utanmayan daxili bədxahlarımız ictimai qınağın ən böyük cəza olduğunu unudurlar. Onu da unudurlar ki, Vətənə, xalqa xəyanət heç kimə başucalığı gətirə bilmədiyi kimi, heç vaxt da bağışlanılmayacaq. Ən əsası isə, itirilmiş mənəviyyatlarını milyonlar xərcləsələr də, bərpa etmək imkanında olmayacaqlar. Bu gün bu əxlaqsız Bəxtiyar Hacılının da yenidən "meydana" həyasız və iyrənc üsullara əl ataraq, Azərbaycana, dövlətimizə və xalqımıza qarşı böhtan yağdıran bu əxlaqsız sosial şəbəkələrdə ölkəmizə qarşı "savaş" açmaq tapşırığını yerinə yetirir. Ancaq bir həqiqəti anlamır ki, nə qədər erməni sevgilərini nümayiş etdirsələr də, heç nə dəyişməyəcək. Çünki Avropa ölkələrinə sığınan və kif atmış təfəkkürlü bu əxlaqsız və bədbəxtlər ancaq idarə olunurlar. Zamanın hakimliyi, tarixin yaddaşlığı fonunda düşmən dəyirmanına su tökən belə ünsürlər bir reallığı anlamalıdırlar ki, daim qınaq obyektinə çevriləcək, tarixin zibilxanasının sakinləri kimi iylənərək, üfunət iyi verəcəklər. Çünki antimilli ünsürlər bu adı xəyanətləri ilə qazanıblar.

Dövlətimizin başçısı İlham Əliyevin səsləndirdiyi "Bu gün biz beynəlxalq arenada bütün məsələlərlə bağlı öz sözümüzü deyirik. Nəyə görə? Əlbəttə ki, güclü siyasi iradəyə görə, cəsarətli siyasətə görə, amma eyni zamanda, maliyyə imkanlarımıza görə. Əgər bu imkanlar olmasaydı, əgər biz bəzi ölkələr kimi, xarici donorlardan asılı olsaydıq, əgər biz yoxsul, səfil Ermənistan kimi ona-buna dilənsəydik, onda əlbəttə ki, bizim müstəqil siyasət aparmaq imkanımız da olmaya bilər, yaxud bu imkanlar məhdud ola bilərdi. Ona görə iqtisadi güc, maliyyə resurslarımız siyasi müstəqilliyimizi də möhkəmləndirir" fikirləri düşmən dəyirmanına su tökənlərə, həmçinin, onlara böyük məbləğdə maliyyə təklif edib dövlətinə, xalqına qarşı xəyanət yolu tutmağa sövq edən dairələrə tutarlı cavabdır.

**R.HÜSEYNOVA**

## AĞ ev: "Donald Tramp və Kim Çen In Hanoy sammitində razılığa gələ bilməyib"



ABŞ Prezidenti Donald Tramp və KXDR lideri Kim Çen In Hanoyda keçirilən sammitin yekununa dair sazişə nail ola bilməyib. Tramp bəyan edib ki, ABŞ KXDR ilə saziş imzalamamağı qərara alıb və bu ölkəyə qarşı sanksiyalar qüvvədə qalacaq. AZƏRTAC xəbər verir ki, Ağ ev bununla bağlı bəyanat yayıb. "Bu dəfə heç bir saziş əldə olunmadı, lakin hər iki ölkə liderinin komandaları gələcəkdə görüşləri davam etdirməyi planlaşdırır", - deyə sənəddə bildirilir. Bəyanatda, həmçinin qeyd olur ki, Donald Tramp və Kim Çen In Hanoyda çox gözəl konstruktiv görüş keçirib. Liderlər nüvəsizləşdirilmə yollarını, həmçinin iqtisadi inkişaf konsepsiyasını müzakirə ediblər.

## Vardan Oskanyan da istintaqa çağırıldı

Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan 2008-ci il 1 mart hadisələri ilə bağlı istintaqa dəvət olunub. SİA Ermənistan KİV-nə istinadən xəbər verir ki, məsələ ilə bağlı Ermənistan Baş Prokurorluğu hələlik açıqlama verməyib.

Xatırladaq ki, 2008-ci il 1 mart hadisələri ilə bağlı eksprezidentlər Levon Ter-Petrosyan və Serj Sarkisyan ifadə verib, 2-ci prezident Robert Koçaryan isə həbs olunub.

## "Sahibkarlara Xidmət Mərkəzi" və "Biznes İnkubasiya Mərkəzi" fəaliyyətə başlayacaq

Yaxın vaxtlarda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunda "Sahibkarlara Xidmət Mərkəzi" və "Biznes İnkubasiya Mərkəzi" fəaliyyətə başlayacaq. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov deyib.

# "Nar" növbəti rəsmi mağazasını Qəbələdə təqdim etdi

"Nar" paytaxtla yanaşı, regionlarda yaşayan sakinlərə göstərilən xidmət səviyyəsini daha da yüksəltmək məqsədilə, mağazalarının sayını artırmaqda davam edir. Mobil operator növbəti rəsmi mağazasını Qəbələdə təqdim edib. Yeni konseptə uyğun mağaza Qəbələ rayonu, H.Əliyev küçəsində yerləşir. Qeyd edək ki, müasir avadanlıqlarla təchiz edilmiş dükanda müştərilərə müxtəlif təkliflərlə xidmət göstəriləcək. Özünün müştəriyönümlülük dəyərlərinə sadiq qalan "Nar", mağazada nömrələr üzərində müxtəlif əməliyyatların həyata keçirilməsi, satışı, internet paketlərinin alışı, telefonların satışı, eyni zamanda diler əməkdaşları tərəfindən digər yüksəkkeyfiyyətli müştəri xidmətləri göstəriləcək.




Yeni dükanın təqdimatı ilə əlaqədar olaraq, fevral ayının 28-i və martın 1-i mağazaya gələn hər bir müştəriyə "Nar" nömrə hədiyyə veriləcək. Bundan başqa, telefon və aksesuar alanlara da "Nar" nömrələr hədiyyə olunacaq.

Qeyd edək ki, "Nar" paytaxtla yanaşı, ölkənin regionlarına xüsusi diqqəti ilə seçilir və bölgələrdə yaşayan abunəçilərə yüksəkkeyfiyyətli mobil rabitə xidməti göstərir. Bu çərçivədə "Nar" xüsusi olaraq Azərbaycanın bölgələrində yaşayan abunəçilərinə cəmi 1 qəpiyə danışmaq imkanı verən "Yerlim" tarifini təqdim edib.

"Nar" mağazalarının ünvanı və xidmətləri haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# "Nar" ATU-nun fərqlənən tələbələrini mükafatlandırdı

Gənclərdə oxumaq həvəsini artırmaq və onlarda motivasiya yaratmaq məqsədilə, "Nar" korporativ sosial məsuliyyət strategiyası çərçivəsində uğurlu layihələr həyata keçirməkdə davam edir. Mobil operator Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq çərçivəsində universitetin Radiotexnika və rabitə fakültəsinin 2018-ci dərs ilinin 2-ci tədris semestri üzrə fərqlənən tələbələrini mükafatlandırıb. "Nar"-ın baş ofisində təşkil edilən görüşdə yüksək nəticələr göstərən Cavid Namazov, Elvin Əmənov və Ülkər Əhmədzadəyə mobil operator xüsusi hədiyyələr təqdim edib. Elm və təhsilə xüsusi önəm verən "Nar"-ın bu təşəbbüsü tələbələri dərslərinə daha həvəslə yanaşmağa sövq edir.




Qeyd edək ki, "Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində 2016-cı ildən Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası yaradılıb. Laboratoriya tələbələrə GSM sahəsi üzrə təcrübi biliklər əldə etməyə imkan yaradır. Müasir telekommunikasiya avadanlığının quraşdırıldığı "Nar" GSM laboratoriyasında tələbələr üçün təlim və seminarlar təşkil edilir. Bu təlimlər mobil rabitənin peşəkarları olan "Nar"-ın texniki əməkdaşları tərəfindən keçirilir. Proqram çərçivəsində praktiki biliklərini inkişaf etdirən bir qrup gənc ixtisaslı kadr kimi yetişmək üçün mobil operatorda ilk addımlarını atır.

"Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# Müxalifət anormal durumdadır

***"Milli Şura"nın nəzərdə tutduğu mitinq baş tutmadıqdan sonra Əli Kərimli anormal bəyanatlar verir, hədələyici mesajlarla çıxışlar edir. Bununla, həm də Ə.Kərimli özünü müxalifətin lideri kimi təqdim etməyə çalışır. Söz yox ki, müxalifətin digər iddialı partiya sədrləri Ə.Kərimlinin bu cür iddialı mövqeyinə seyirçi qalmayacaqlar. Söhbət etdiyimiz müsahiblərimiz də o fikirdədirlər ki, Ə.Kərimli önə çıxmaq üçün hay-küylü metoddan istifadə edir ki, bu da cəmiyyətdə müxalifətə qarşı olan mənfi münasibəti daha da dərinləşdirmiş olacaq.***

Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: **"Müxalifətin mitinqlərlə bağlı məkrli planları baş tutmadı"**



- Deməkolar ki, müxalifət düşərgəsini təmsil edən bu şəxslər hədsiz dərəcədə əsəbilik keçirirlər. Çünki onların mitinqlərlə bağlı məkrli planları baş tutmadı. Bunlar, elə hesab edirdilər ki, guya xalq bunların arxasınca gələcək. Amma onlar, bir daha başa düşdülər ki, xalq bunları dəstəkləmir və dəstəkləməyəcəkdir. Bu günə qədər müxalifət tərəfindən keçirilən aksiyaların heç biri baş tutmayıb. Səbəb müxalifətin xalq tərəfindən heç bir dəstəyinin olmaması ilə bağlıdır. Bir sözlə, müxalifət mitinq keçirə bilmədiyindən, pərt vəziyyətdə qalıb. Bu baxımdan, xaricdəki "ağaları" onları qınayır. Vəziyyətdən çıxmaq üçün Ə.Kərimli hədələyici bəyanatlarla çıxış edir. Əlbəttə ki, onların bu cür davranışı siyasətçiyə yaraşmayan bir hərəkətdir. Bu, bir faktdır ki, hər zaman müxalifət düşərgəsində lider olmaq uğrunda bir savaş gedib. Bu gün Ə. Kərimli özünü müxalifətin lideri kimi təqdim etməyə çalışır. Söz yox ki, müxalifətin digər iddialı partiya sədrləri Ə.Kərimlinin bu cür hikkəli, təkəbbürlü və iddialı mövqeyinə seyirçi qalmayacaqlar. Onların arasındakı qarşılıqlı ittihamlar daha da artacaq.

Namiq Əliyev "Palitra" qəzetinin baş redaktoru: **"Elçibəy tərəfdarları Kərimlini heç zaman lider kimi qəbul etməyəcəklər"**



- Bakı Şəhər İcra Hakimiyyətinin "Milli Şura"nın mitinq keçirmək istəyi ilə bağlı müraciətinə mənfi cavab verməsi düzgün addım idi. Mitinq keçirmək istəyən qurum üzərinə öhdəlik götürür ki, müəyyən tələblərə əməl edəcək. Əgər aksiya iştirakçıları mitinqi idarə edənlərin nəzarətindən çıxırsa, ictimai asayiş pozulursa, o zaman təşkilatçılar məsuliyyət daşıyırlar. Bu baxımdan, 23 fevrala elan edilmiş mitinqin baş tutmamasın da birinci günahkar "Milli Şura" rəhbərliyidir. Odur ki, Ə.Kərimli hədələyici bəyanat verməkdənsə, üzərinə götürdüyü öhdəliyə əməl etməlidir. Müxalifətin lideri olmaq iddiası ilə çıxış edən birisi, liderin məsuliyyət yükünün ağırlığını da dərk etməlidir. Yoxsa ötən əsrin 90-cı illərində olduğu kimi, əvvəl xalq hərəkatının önünə keçib, sonra isə azacıq bir təzyiq qarşısında hakimiyyəti qoyub qaçmazdılar. İkinci bir tərəfdən, hazırda "Müxalifətin lideri kim olacaq" sualı, hələ ki, açıq qalır. Kiminsə özünü lider hesab etməsi, hələ bütün müxalifətin həmin şəxsi lider kimi tanıması demək deyil. İllərdir ki, müxalif qüvvələr arasında "ana müxalifət" adını qazanmaq uğrunda rəqabət gedib və bu gün də davam edir. Digər müxalifət partiya rəhbərlərinin əksəriyyəti, çətin ki, Ə.Kərimlinin liderliyini qəbul etsinlər. Çünki keçmişdə yol verdiyi səhvlər, xüsusən də, lideri Elçibəyə qarşı "ikinci cəbhə" açması onun zəif bəndidir. Müxalifətdəki Elçibəy tərəfdarları Kərimlini heç zaman lider kimi qəbul etməyəcəklər, onu bağışlamayacaqlar və keçmişi unutmayacaqlar.

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: **"Bu cür müxalifətçilik heç bir siyasi mübarizə metoduna uyğun gəlmir"**



- Məhz müxalifətin radikal qolu olan bu insanlar 26 ildir ki, özlərini müxalifət adlandıraraq normal siyasi dildə deyil, ancaq hədə dili ilə danışırlar. Hədə dili ilə danışmaq isə bütün hallarda zəiflik nümunəsidir və bir daha özləri sübut edir ki, bunların siyasi gücü yoxdur. 19 yanvar mitinqindən əvvəl Cənab Prezident tərəfindən yeni islahatların başlanmasına baxmayaraq, bu şəxslər iddia ilə Prezidentin ardıcıl surətdə apardığı bu islahatları guya bunların təzyiqi ilə baş verdiyini car çəkərək, yenə də özlərində eyforiya yaşadırlar. Ancaq anlamırlar ki, bir qrup radikal baxışlı insanları ətrafına yığıb, bu cür müxalifətçilik etmək heç bir siyasi mübarizə metoduna uyğun gəlmir. Məhz mitinqə də icazə verilməməsinin əsas səbəbi özlərini radikal aparmaqları ictimai asayişi pozmaq cəhdləri ilə əlaqədar edir. Həm 19 yanvar mitinqindən sonrakı həm də 20 Yanvar ümumxalq hüzn günü etdikləri hərəkətlərə görə bunların mitinq keçirilmələrinə haqlı olaraq icazə verilmir. Eyni zamanda, bu şəxslər Azərbaycanda siyasi etikaya uyğun müxalifətçilik edən şəxslərə qarşı da hörmətsizlik edirlər. Özlərindən başqa heç kimi müxalifət görməyən bu insanların düşüncəsinə görə müxalifətçilik qışqırıb-bağırmaq, şər-böhtan atmaq üsullarıdır. Əgər kimsə müxalifətçidirsə, bunu etməlidir. Əks halda, onlar müxalifət deyil. Budur bunların yanaşma tərzi və siyasi düşüncəsi. Hesab edirəm ki, bunların bu mövqelərinə qarşı Azərbaycanda sivil formada mübarizə aparan digər müxalif qüvvələr öz sözlərini deməlidirlər. Onlar imkan verməməlidirlər ki, bunlar bu mövqe ilə onların mübarizələrinə kölgə sala və siyasi inhisarçılıq edərək, "tək müxalifət biz" deyib cəmiyyəti çaşdırmayalar. Yeqin ki, digər müxalif qrupların rəhbərləri bu istiqamətdə seyrçi qalmayaraq, öz sözlərini deyəcəklər, çünki bu, onların da maraqlarına xidmət edir.

**GÜLYANƏ**

# Əli Kərimlinin dəyişməyən siyasi naqisliyi

## *Təhqir və əxlaqsızlıq AXCP sədrinin həyat tərzinə çevrilib*

***Son günlər dağıdıcı düşərgədə baş verənlər göstərir ki, söyüş, təhqir, əxlaqsızlıqlarla dolu dırnaqarası siyasi mübarizə metodları, xüsusilə, Əli Kərimlinin dəyişməyən naqisliyi onun həyat tərzinə çevrilib. Bu, təəccüb də doğurmur. Çünki cəmiyyətə özünü "ana" müxalifət kimi sırımağa çalışan Ə.Kərimlinin ətrafına nəzər yetirmək kifayətdir. Qənimət Zahid, Azər Əhmədov, Natiq Ədilov, Xədicə İsmayıl və Türkel Kərimlinin yayılmış videoları kifayət edir ki, bu mənfur və çirkab bataqlığında çapalayanlar həyasızcasına xalq adından danışmaq istəyir.***

Avropada oturub, Azərbaycan əleyhinə təbliğat aparırlar və radikal düşərgə təmsilçilərinə konkret istiqamət verirlər. Xaricdəki siyasi buqələmunlar etiraz formalarını açıq və sivil formada göstərmək üçün məkan olaraq izdihamlı yerləri yox, ayaqyolларını seçirlər. Bununla da, mahiyyət etibarilə "ayaqyolu müxalifəti" funksiyasını daşıdıqlarını göstərirlər.

### Abırları olsaydı...

Belə olan halda, siyasətdə qalmağa dəyərmi? Görünür, Tanrının bizə bəxş etdiyi o hissiyyatın nə olduğunu hələ bu günə kimi anlamayıblar. Anlasaydılar, "Azərbaycanda insan haqlarının pozulması"na dair dinləmələrdə AXCP sədri Ə.Kərimlinin əxlaqsız oğlu Türkel Kərimli iştirak etməzdi. Böyük Kərimliyə sual verilməlidir ki, nəyə görə həmin dinləmələrdə, məhz küçük Kərilmi çıxış edib? Çünki Britaniya təhsilli T.Kərimlinin ingilis dilində öz ölkəsinin qarasınca ağınabozuna baxmadan səpələdiyi böhtançı cümlələrini o biri tərəfdən, yəni Azərbaycandan Xədicə İsmayıl adlı digər milli satqın da skayp vasitəsilə təsdiqləyib. Özü də Ermənistandan tökülüşüb gəlmiş jurnalist ordusunun, "Amerikanın Səsi" radiostansiyasının erməni bürosunun əməkdaşlarının, həmçinin, işğal altındakı Qarabağın separatçı "prezidenti" Bako Saakyanın oğlu, Amerika Erməni Konqresinin fəalı Armen Saakyanın hüzurunda..! Çünki təhqir və əxlaqsızlıq AXCP sədrinin ailə prinsipinə çevrilib. Özünü "milli demokratiyanın" "ana müxalifətçi" partiyasının sədri kimi təqdim edən böyük Ə.Kərimliyə sual eidlməlidir ki, nəyə görə həmin dinləmələrdə, məhz küçük Kərimli çıxış edib? Məgər böyük Kərimlinin "o boyda" Xalq Cəbhəsində, yaxud "Milli Şura"sında çıxış edəcək başqa adam tapılmadımı? C.Həsənli, G.Hacıbəyli, Q.Zahid və sairləri T.Kərimlidən xəyanətkarlıq baxımından və ağıl dərəcəsində bu qədərmi səviyyəsizidlər ki, onların yerinə oğlunu göndərirsən? Demək ki, sən Ə.Kərimli olaraq, bunu etiraf etməlisən ki, bu sənin əxlaqsız və naqis ailə prinsipinə çevrilən fəaliyyətindir.

### Faktlar, dəlillər...

Bu, o küçük T.Kərimlidir ki, A.Saakyanla birləşərək Azərbaycan hakimiyyətinə qarşı şər və böhtan dolu fikirlər səsləndirir, Ə.Kərimli də Bakıda mitinq keçirməyə cəhd göstərir, "xalq", "dövlət", "demokratiya" və s. ifadələrsələndirməklə, təxribat törətməyə çalışır. Çünki ermənilər Azərbaycana qarşı nə edirlərsə, Ə.Kərimli də, məhz bu cür edir.

Bu gün Ə.Kərimli və onun kimilər cəhənnəmin lap dibində durur. Necə ola bilər ki, ata-ananın, əcdadlarının yaşadığı, ən gözəl xatirələrinin ünvanı olan, ana adlandırdığın vətənə xəyanət edəsən? Əclaflıq adlanan




oyun qaydalarını qəbul edəsən? Psixologiya elminə görə, xəyanət - elmi baxımdan, daha geniş olan satqınlıq anlayışına daxildir. Xəyanətlərin ən böyüyü - dövlətə xəyanətdir. Beləliklə, 'satqın zehniyyəti nədən qaynaqlanır? Maliyyə-pul arqumenti, kriminal istedad xəyanətin izahı üçün kifayətdirmi? Alınan nəticələr göstərir ki, Ə.Kərimlinin və onun ardınca oğlunun bu satqınığı ailə prinsipinə əsaslanan xəyanətkarlığından irəli gəlir. Məhz buna görə - xəyanətin qiyməti yüksəkdir. Satqın üçün hər şey - satlıq maldır. Bir psixoloqun dediyi fikirləri xatırlatmaq istərdim: "Tarix boyu bu xislətli fərdlər insanlıq adına layiq olmayanlar kimi qəbul edilib. Satqınlığın qaynaqları - uşaqlıq dövründə ailədə gizlənir. Normal ailədə - satqının böyüməsi mümkün deyil".

Göründüyü kimi, Ə.Kərimlinin siyasi fəaliyyəti və müxalifətçiliyi yalnız xəyanət üzərində qurulan və alqı-satqı obyekti olaraq çox işlədilən məfhumdur. İşlənmiş əşyalara isə nə Azərbaycan siyasəti, nə Azərbaycan hakimiyyəti, nə də beynəlxalq təşkilatlar ehtiyac duyurlar. Belə olan halda, Ə.Kərimli və onun küçük oğlu anlamalıdır ki, milli xəyanətkarların yeri tarixin zibilliyidir və onlar sona qədər həmin zibillikdə qalacaqlar.

**Rəfiqə HÜSEYNOVA**

# 20-40 yaşlı əhali arasında qızılcaya qarşı peyvəndləmə aparılacaq




Səhiyyə naziri Oqtay Şirəliyev respublikada qızılca xəstəliyinə qarşı immunlaşdırma tədbirlərinin keçirilməsinə dair əmr imzalayıb. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əmrdə qeyd olunur ki, keçən il Avropanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanla həmsərhəd olan Gürcüstan və Rusiya Federasiyasında qızılca xəstəliyinin yayılması və xəstəliyin ölkəmizə gətirilmə halları qeydə alınıb.

Qabaqlayıcı tədbirlərlə xəstəliyin qarşısını almaq məqsədilə imzalanan əmrdə Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə 2019-cu ilin mart-aprel aylarında qızılca xəstəliyi qeydə alınan Bakı şəhərində, respublikanın digər şəhər və rayonlarında 20-40 yaşlı əhali arasında qızılcaya qarşı immunlaşdırma tədbirlərinin keçirilməsi tapşırılır.

# Hüquqi dövlət, demokratik cəmiyyət quruculuğu və insan hüquqlarının müdafiəsi

***Azərbaycanda hüquqi dövlət və demokratik cəmiyyətin qurulması məqsədi hələ 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktında əksini tapmışdı. Qarşıya qoyulmuş bu hədəf o illərdə yaxın və asan görünmürdü.***

Yeni yaranmış dövlətimiz özünü Azərbaycan Xalq Cümhuriyyətinin davamçısı elan etməklə bərabər, siyasi və iqtisadi münasibətlərin fundamental prinsiplərini - bütün təbii sərvətlərin xalqa mənsub olmasını, mülkiyyətin bütün formalarının bərabərliyini, vətəndaşların seçki hüququnun, çoxpartiyalı sistemin təminatını, insan hüquq və azadlıqlarının ümumi prinsiplərini rəsmən elan etmişdi. Həmin aktda Azərbaycan xalqının, eyni zamanda, idarəetmə formasını seçmək, başqa xalqlarla münasibətlərini müəyyənləşdirmək, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək hüququ da təsbit olunmuşdu. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın 12-ci maddəsində Azərbaycan xalqının müstəqil, dünyəvi, demokratik, hüquqi və unitar dövlət yaratma yolunu tutması fikri əksini tapmışdı.

Hüquq elmləri doktoru İsaxan Vəliyev yazır: "Müstəqilliyimizin ilk illərində bir sıra obyektiv və subyektiv səbəblər üzündən Azərbaycanda bu sahədə, demək olar ki, əsaslı irəliləyiş baş verməmişdi. 90-cı illərin əvvəllərində ölkədə yaşanan siyasi kataklizmlər, vətəndaş qarşıdurması, siyasi xaos və özbaşınalıq, iqtisadi tənəzzül, təcrübəsizlik, eyni zamanda, yeni cəmiyyətin tələblərinə uyğun qanunların olmaması kimi neqativ amillər bu prosesə öz mənfi təsirini göstərirdi.

Respublikamızın demokratik inkişaf hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, siyasi azadlıqların təminatı istiqamətində qazandığı böyük nailiyyətlər, məhz Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır. 1993-cü ilin iyununda dünya şöhrətli ictimai-siyasi xadim, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycanın siyasi hakimiyyət rəhbərliyinə qayıdışından sonra ölkədə qanunçuluğun və hüquq qaydalarının bərpası istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi prosesi geniş vüsət almışdır."

1993-cü il iyunun 15-də Azərbaycan parlamentində dərin məzmunlu nitq söyləyən Ulu Öndər Heydər Əliyev respublikanı xaos və anarxiya burulğanından çıxmaq, xalqın etimadını doğrultmaq üçün səylə çalışacağını bəyan etmişdir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozuntularına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması, məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan hüquqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız, bir il bundan öncə, başladığı yolla getməkdə davam etməlidir. Bu, düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam".

Ümummilli Lider Heydər Əliyev xalqın dəstəyinə əsaslanaraq, 1994 və 1995-ci illərdə dövlət çevrilişi cəhdlərinin qarşısını qətiyyətlə almış, kriminogen durumun sabitləşməsinə, ictimai-siyasi sabitliyin və vətəndaşların təhlükəsiz yaşamaq hüququnun təminatına nail olmuşdur. O, Azərbaycanın prioritet inkişaf yoluna çevrilmiş milli iqtisadi modeli özünəməxsus uzaqgörənliklə əsaslandırmış, eyni zamanda, bu spesifik modelin yalnız demokratik tərəqqiyə əsaslanan möhkəm ictimai-siyasi sabitlik şəraitində davamlı nəticələr verə biləcəyini vurğulamışdır. Heydər Əliyev dəfələrlə bildirmişdir ki, Azərbaycan könüllü olaraq qoşulduğu demokratiya yolunun iqtisadi bazisə əsaslanan təkamül modelinin özünü alternativsiz inkişaf yolu hesab edir və tətbiq olunan hər hansı mütərəqqi yeniliyin xalqın milli xüsusiyyətləri, ictimai şüur səviyyəsi ilə səsləşməsini vacib sayır: "Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə təkamül yolu ilə olmalıdır. Çünki hər bir şeyə tezliklə nail olmaq çətindir".

İ.Vəliyevanın fikrincə, Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına doğru uzanan mürəkkəb prosesin, məhz 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk Milli Konstitusiyaya əsaslandığını xüsusi vurğulamağa ehtiyac yoxdur. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

Ümummilli Lider Heydər Əliyev 2002-ci ilin 24 avqust referendumu ərəfəsində seçicilərlə keçirdiyi görüşlərdə həmin qüvvələrin cəfəng iddialarına cavab olaraq demişdi: "...Mən onların bu dəyişiklikləri belə etirazla qarşılayacaqlarını gözləmirdim. Müxalifət konstitusiyaya dəyişikliklərin nə üçün əleyhinə çıxır? Orada əleyhinə çıxılası heç bir şey yoxdur. O dəyişikliklər, birinci növbədə, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının daha da yaxşı təmin olunmasına həsr olunmuşdur. İndi bu hüquq və azadlıqları daha da etibarlı qorumaq üçün həmin dəyişikliklər təklif edilir".

Konstitusiyanın qəbulundan sonra bir ictimai-iqtisadi formasiyadan digərinə keçid mərhələsinin doğurduğu çeşidli problemlərin həlli üçün fundamental hüquqi baza eldə edən Azərbaycan, eyni zamanda, demokratik-hüquqi, sivil inkişaf yolunun dönməzliyini və əbədiliyini özü üçün tam yəqinləşdirmişdir. Tarixi təcrübə sübut edir ki, demokratikləşmə prosesi təkcə iqtisadi inkişafla deyil, həm də cəmiyyətdə sabitliyin, hüquq qaydalarının, qanunçuluğun gücləndirilməsi, bir sözlə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna yönəlmiş islahatların dərinləşdirilməsi ilə şərtlənir.

İ.Vəliyev yazır: "Azərbaycanın demokratik dövlət olmasını şərtləndirən əsas meyarlardan biri də xalqın hakimiyyətin əsas mənbəyini təşkil etməsi və siyasi idarəçilik mandatının yalnız xalqa məxsus olmasıdır. Öz fəaliyyətində hüququ rəhbər tutmayan, əsas insan hüquq və azadlıqlarını təmin etməyən, qanunun aliliyinə söykənməyən, ictimai həyatın bütün sahələrini qanunlar əsasında idarə etməyən siyasi sistem hüquqi ola bilməz. Respublikamızda dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Azərbaycan könüllü olaraq qoşulduğu demokratiya və hüquqi dövlət quruculuğu prosesində milli xüsusiyyətlərlə yanaşı, beynəlxalq təcrübəyə istinad etmiş, Avropanın və dünyanın aparıcı demokratik institutları, siyasi-hüquqi təsisatları ilə əməkdaşlıq etmiş, onların dəyərli təklif və tövsiyələrinə hörmətlə yanaşmışdır. Bu mərhələdə Ulu Öndər Heydər Əliyevin imzaladığı bir sıra mühüm sərəncamlar Azərbaycanın Avropa ailəsinə inteqrasiyası prosesini daha da sürətləndirmişdir. 8 iyun 1996-cı il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 20 yanvar 1998-ci il tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", habelə, 14 may 1999-cu il tarixli "Azərbaycan Rcspublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin təmin edilməsi haqqında" sərəncamlar bu sırada xüsusi vurğulanmalıdır. Bütün bunların müqabilində, Avropa Şurasında Azərbaycanla bağlı yanlış təsəvvürlər alt-üst olmuş və əməkdaşlığa maraq artmışdır."

2000-ci il mayın 15-də Avropa Şurası Siyasi Komitəsinin Dublin şəhərində keçirilmiş iclasında Azərbaycan üzrə məruzəçi olmuş J.Bomelin hesabatı dinlənilərək, respublikamızın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə bağlı rəy verilmişdir. AŞ PA-nın 2000-ci il iyunun 26-28-də keçirilmiş növbəti sessiyası zamanı 126 nəfər deputatın iştirak etdiyi səsvermədə 120 nəfər lehinə, 1 nəfər əleyhinə, 5 nəfər isə bitərəf qalmaqla, Azərbaycan Respublikasının Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsi məsələsi dəstəklənmişdir. 2000-ci il sentyabrın 6-da Avropa İttifaqının üzvü olan ölkələrin adından Azərbaycan və Ermənistanın Avropa Şurasına üzvlük üçün müraciətləri ilə bağlı bəyanat qəbul edilmişdir. Bu dövlətlərdə mövcud siyasi şəraitin müəyyən zaman kəsimində Avropa Şurası tərəfindən müdafiə olunan dəyər və prinsiplərə uyğun şəkildə inkişaf edəcəyinə ümidin ifadə olunduğu bəyanatda bildirilirdi ki, katiblik tərəfindən göstərilən məsələ haqqında hazırlanmış təhlillərin bu iki dövlətin quruma qoşulmasının siyasi və maliyyə tərəfləri ilə əlaqədar olaraq, Avropada Demokratik Siyasi Sabitlik üzrə Məruzəçilər Qrupunun 2000-ci il sentyabrın 15-də keçiriləcək iclasında baxılması üçün ona ötürülməsi və onun tərəfindən bu məsələyə dair hazırlanmış məruzənin Nazirlər Komitəsində nəzərdən keçirilməsi məqsədəuyğun sayılır. Bunun nəticəsi kimi, 1996-cı ildən təşkilatda xüsusi qonaq statusu ilə təmsil olunan Azərbaycan 2001-ci ilin 17 yanvarında Nazirlər Komitəsinin qərarı ilə Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilmişdir. 2001-ci il yanvarın 25-də Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasimə Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti də qatılmış, Ümummilli Lider burada geniş nitq söyləmişdir.

Müəllif qeyd edir ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanda demokratik və siyasi təsisatların inkişafı istiqamətində həyata keçirdiyi mühüm addımlardan biri də 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı imzalaması olmuşdur. Bu mühüm sənəddə siyasi islahatların dərinləşdirilməsi yönümündə həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində qazandığı mühüm nailiyyətlərdən biri də Birləşmiş Millətlər Təşkilatı (BMT) və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Bu memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

Azərbaycanda demokratik siyasi sistemin formalaşdırılması istiqamətində mühüm addımlardan biri də ölkədə söz, fikir, məlumat azadlıqlarının genişləndirilməsi istiqamətində həyata keçirilən islahatlar olmuşdur. Bu da təsadüfi deyildir - azad müstəqil media müasir dövrdə demokratikləşmə proseslərinin əsas atributlarından biri kimi mühüm əhəmiyyət kəsb edir. O, bir tərəfdən cəmiyyətdə demokratik prinsiplərin bərqərar olmasında öncül rol oynayır, digər tərəfdən isə, demokratiyanı səciyyələndirən başlıca göstəricilərdən biri kimi çıxış edir. Beləliklə, kütləvi informasiya vasitələri siyasətin ayrılmaz tərkib hissəsinə çevrilir və cəmiyyətin bütün sferalarına və təsisatlarına, eləcə də, siyasətə mühüm təsir göstərir.

Azərbaycan Respublikası Konstitusiyası 50-ci maddəsində hər kəsin informasiya əldə etmək hüququ təsbit edilmişdir. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 iyun tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", eyni zamanda, vətəndaşların Azərbaycan Konstitusiyasında əksini tapmış söz, mətbuat, fikir azadlıqlarının təminatına da yaxşı imkanlar açmışdır. Bu Dövlət Proqramından az sonra - Azərbaycan Respublikasının Prezidenti tərəfindən 6 avqust 1998-ci il tarixdə imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman kütləvi informasiya vasitələrini senzuradan azad etmişdir. Mətbuat üzərində dövlət senzurasının ləğvi barədə Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, cəmiyyət həyatında onların səmərəli rolunun artırılması sahəsində geniş Dövlət Proqramının əsas istiqamətləri-ni müəyyənləşdirmişdir.

Azərbaycanda açıq cəmiyyətin formalaşdırılması istiqamətində həyata keçirilən mühüm addımlardan biri də internet və kompüter texnologiyalarının inkişafı yönümündə atılan hüquqi addımlar olmuşdur. Müasir qloballaşma əsrində informasiya və kommunikasiya texnologiyaları, mütərəqqi yenilikləri özündə ehtiva edən çoxşaxəli innovasiya sistemləri hər bir dövlətin ümumi inkişaf səviyyəsindən və potensialından xəbər verən, sosial-iqtisadi, mədəni-intellektual yüksəlişi təmin edən vacib meyarlardan birinə çevrilmişdir. İqtisadi tərəqqi, demokratikləşmə və insan hüquqlarının etibarlı təminatı baxımından, özünün yüksək inkişaf mərhələsinə çatmış ölkələrin bu nailiyyətləri, eyni zamanda, informasiya iqtisadiyyatına əsaslanan mütərəqqi biliklər nəticəsində, əldə etdiyi danılmaz həqiqətdir.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

**Son səhifə** **1 mart**

## *Atadan övlada ötürülən genetik özəlliklər...*



Genetika çox qəribə və maraqlı anlayışdır. Anadan övladına bir çox zahiri və daxili cəhət keçsə də, adətən körpələr atadan daha çox genetik özəllik ötürülür. Atadan övlada ötürülən genetik özəlliklərin bir neçəsini təqdim edirik:

Üzün simmetriyası körpəyə atadan keçir. Əgər ərinizin qalın çənəsi, assimetrik qaşları və burnunda əyriliyi varsa, bilin ki, körpəniz həmin özəlliklərlə doğula bilər. Həmçinin normadan böyük qulaqlar da bu siyahıya aiddir.

Batıq yanaqlar üz əzələsi ilə bağlı olan özəllikdir və dominantlıq təşkil edir. Əgər atanın yanağı batırsa, övladınız da bu xüsusiyyəti təkrarlayacaq.

Dişlərin keyfiyyəti qədər forması da genetik xüsusiyyət daşıyır. Əgər atanın nə vatsa ağız boşluğunda problemi olubsa, demək körpənizdə də həmin problem yaşanacaq.

Maraqlısı budur ki, saçların quruluşu və qalınlığı da atanın mirasıdır. Belə ki, atanın saçları tökülməyə meyillidirsə, bu hal övladında da təkrarlanacaq. Bura həmçinin, saçın rəngi, buruqluğu kimi cəhət də daxildir.

Əl izlərimiz hər birimizdə unikal və fərqlidir. Lakin çox vaxt körpənin əl izləri valideynlərinkinə çox bənzəyir. Xüsusən də ata və oğul arasındakı bu bənzərlik bəzən alimləri heyrətləndirir.

Atanın dodaq quruluşu da körpəsində adətən təkrarlanır. Əgər ərinizin dodaqları həcmlidirsə, böyük ehtimalla körpənizdə bu cəhət təkrarlanacaq.

## *Yerin altında 23 milyard ton ağırlığında canlı yaşayır*



Yerin altında 15-23 milyard ton ağırlığında mikroorqanizm var. "Report" "The Guardian" qəzetinə istinadən xəbər verir ki, bu, 52 ölkədən 1200 alimin apardığı araşdırma nəticəsində kəşf edilib. Bu da Yerin üst qatındakı bütün insanların ağırlığından yüzlərlə dəfə ağır, dünyadakı bütün okeanların həcmindən 2 dəfə böyükdür. Alimlərin qənaətinə görə, bu araşdırma yeni həyat mənbəyinin olduğunu kəşf etməyə oxşayır. Dünyanın dərinliklərində üzərində olandan daha çox həyat var. Araşdırma üçün lazım olan nümunələr 5 km-dək uzanan quyuların qazılması sayəsində əldə edilib.

## *Harvadlı professor: Kokos yağı "saf zəhər"dir!*



Harvadlı professor Karin Mixels faydalı zənn edərək, tez- tez istifadə etdiyimiz kokos yağına görə xəbərdarlıq edib. Teleqraf.com xəbər verir ki, bu yağın populyarlığına baxmayaraq professorun xəbərdarlığı müzakirələrə səbəb olub. O çıxışında kokos yağını "saf zəhər" adlandıraraq, insanları bu yağdan istifadə etməməyə çağırıb.

50 dəqiqəlik çıxışında professor bu yağın otaq istiliyində qatı bir hala gəldiyini və içində yüzdə 80-dən çox doymuş yağ olduğunu deyib. Hətta heyvani yağ olan donuz yağının içində belə 100 -də 40 faiz doymuş yağın olduğunu diqqətə çəkib.

## Avroliqa kuboku Bakıya nə vaxt gətiriləcək?



Avropa Liqasının kubokunun Bakıya gətiriləcəyi tarix açıqlanıb. UEFA-nın rəsmi saytında yer alan xəbərə görə, kubok may ayının 16-da paytaxtımızda olacaq. Buna qədər isə o, müxtəlif vaxtlarda Avropanın 8 şəhərində Cenevrə (9 mart), Sevilya (22-23 mart), Berlin (29-30 mart), London (5-6 aprel), Milan (12 aprel), Moskva (20 aprel), Parisdə (10 may) nümayiş olunacaq. Səyahətdə Lotar Matteus, Deku, Andres Palop və Eydur Qudyonsen də iştirak edəcəklər. Qeyd edək ki, bu mövsüm Avroliqanın final oyunu mayın 19-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

## Şenol Günəş Türkiyə millisinin baş məşqçisi oldu!



"Beşiktaş"ın çalışdırıcısı Şenol Günəş Türkiyə millisinin baş məşqçisi təyin olunub.Türkiyə Futbol Federasiyasının saytında yer alan xəbərə görə, 66 yaşlı mütəxəssislə 4 illik müqavilə imzalanıb. O, bu vəzifədə istefaya göndərilən Mirça Luçeskunu əvəzləyib. Ş.Günəşin müqaviləsinin bu ilin iyunundan qüvvəyə minəcəyi bildirilib. Ancaq "ay-ulduzlular"ı mart ayında Avro-2020-nin seçmə mərhələsinin Moldova və Albaniya ilə oyunlarına da təcrübəli mütəxəssis çıxaracaq. Onun mövsümün sonunda "Beşiktaş"dan ayrılacağı gözlənilir.

Qeyd edək ki, Ş. Günəş bundan əvvəl 2000-2004-cü illərdə də Türkiyə millisini çalışdırıb. Yığma onun rəhbərliyi altında DÇ-2002-yə qatılıb və tarixində ilk dəfə mundialın bürünc medalını qazanıb.

## "Barselona" "Real"ı darmadağın etdi!



Fevralın 27-də futbol üzrə İspaniya Kral Kubokunda ilk finalçının adına aydınlıq gətirilib. "Barselona" klubu "El Klassiko"da əzəli rəqibi "Real"ı səfərdə böyük hesabla (3:0) məğlubiyyətə uğradaraq İspaniya Kubokunun finalına yüksəlib. Kataloniya təmsilçisinin heyətində Luiz Suares dubl edib, digər qolu isə Rafael Varan öz qapısına vurub. Kataloniyada keçirilən ilk görüş 1:1 hesabı ilə yekunlaşdığından, "Barselona" finala vəsiqə qazanan tərəf olub.

## Yıldırım Dəmirörən istefa verib



Türkiyə Futbol Federasiyasının (TFF) sədri Yıldırım Dəmirörən daha aktiv biznes fəaliyyəti ilə məşğul olmaq istədiyini bildirib və istefa verdiyini açıqlayıb. Türkiyə mətbuatının yazdığına görə, Dəmirörən IDDAA və "Dəmirörən Holdinq"in idarə heyətində təmsil olunacağını diqqətə çatdırıb, bu səbəbdən uzun illər şərəflə və qürurla xidmət etdiyi vəzifəsindən istefasını artıq söz-söhbətlərə səbəb olmamaq üçün verdiyini qeyd edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana da təşəkkürünü bildirən TFF sədri, həmçinin bütün klubların rəhbərlərinə, TFF İdarə Heyətinə, milli yığma komandanın məşqçilərinə minnətdarlıq edib. TFF-nin sədri vəzifəsini müvəqqəti olaraq İdarə Heyətinin üzvü Hüsnü Gürel icra edəcək.

## "Roma" 23 yaşlı futbolçu üçün 15 milyon avro ödədi



"Roma" "Atalanta"nın futbolçusu Brian Kristanteni birdəfəlik alıb. Klubun saytında yer alan xəbərə görə, 23 yaşlı yarımmüdafiəçi üçün 15 milyon avro təzminat ödənilib. Qeyd edək ki, "Roma" ötən ilin yayında B.Kristanteni 5 milyon avro ödəyərək icarəyə götürmüşdü. Əlavə edək ki, B.Kristante bu mövsüm A seriyasında 23 matçda 4 qol vurub, 3 qolun ötürməsini verib.

### ELAN

ADPU-nun ibtidai təhsil ixtisası üzrə II kurs tələbəsi Məmmədli Rəqsanə Camal qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**